

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Qafqaz İslam Ordusunun zəfər yürüşü



4

№ 167 (7092)

13 sentyabr 2024-cü il.
Qiymәti 60 qәpik

# Azərbaycan və Vatikan arasında dərinləşən dostluq və qarşılıqlı əməkdaşlıq münasibətləri



2

# Formula-1 yenidən Bakıdan start götürdü



4

## USAİD vasitəsi ilə genişləndirilən CASUS ŞƏBƏKƏSİ




5

## Frank Şveberin Azərbaycana qarşı qərəzinin arxasında erməni lobbisi dayanır



7

## Uşaqlar neçə yaşdan dil öyrənməyə başlamalıdır?




10

## "Terror aktları Azərbaycanı antiterror tədbirləri həyata keçirməyə məcbur etdi"



12

## Bahalaşmanı kompensasiya etmək üçün maaşlar nə qədər artırılmalıdır?



14

# Azərbaycan və Vatikan arasında dərinləşən dostluq və qarşılıqlı əməkdaşlıq münasibətləri



***Ölkəmiz müstəqil dövlət olaraq, dünyanın bir çox ölkələri ilə yanaşı, katolik xristianlarının mərkəzi sayılan Vatikan dövləti ilə də diplomatik münasibətləri yüksək səviyyədə qurub. İkitərəfli münasibətlərin qurulmasında Ulu Öndər Heydər Əliyevin xidmətləri danılmazdır. Ulu Öndər Heydər Əliyevin 1997-ci il sentyabrın 26-da Vatikana rəsmi səfəri və Roma papası II İohann Pavellə görüşü bu əlaqələrin dərinləşməsində və möhkəmlənməsində mühüm rol oynayıb.***

2002-ci ildə Vatikan dövlətinin başçısı, Roma Papası II İohann Pavelin, ilk dəfə olaraq, Azərbaycana rəsmi səfəri zamanı Ulu Öndər Vatikan rəhbərini dinindən, dilindən, irqindən asılı olmayaraq, bütün bəşəriyyətin dostu və dünya vətəndaşı adlandırmışdı. II İohann Pavel isə Azərbaycanı Şərq ilə Qərbin arasında qapı olan bir məkan kimi xarakterizə etmişdir.

Ulu Öndər Heydər Əliyev siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2005-ci ilin fevralında İtaliyaya rəsmi səfəri zamanı Vatikanda olması ölkələr arasında əlaqələrin daha da dərinləşməsinə töhfəsini vermiş oldu. 2008-ci ildə Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Tarçiziyo Bertone Azərbaycana səfər etməsi bu əlaqələrin davamlığına dəlalət edir.

Mövcud əlaqələrin inkişafında Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələri də müstəsnadır. Heydər Əliyev Fondunun dəstəyi ilə Vatikanın Müqəddəs San-Marçellinio və Pietro katakombaları əsaslı təmir və bərpa edilmişdir. 2012-ci ildə Vatikan muzeylərində diplomatik əlaqələrimizin 20 illiyinə həsr edilmiş Azərbaycan sərgisi keçirilmişdir. Bu Vatikanda ilk müsəlman ölkəsinin sərgisi idi.





### “SİVİLİZASİYALARARASI DİALOQ YAŞAYIR, DAVAM EDİR, GÜCLƏNİR VƏ BİZ ÇALIŞIRIQ Kİ, BU DİALOQA YENİ TƏKAN VERƏK”

2016-cı il 2 oktyabr tarixində katoliklərin lideri Roma Papası Fransiskin Azərbaycana səfəri dinlərarası, məzhəblərarası toqquşmaların baş verdiyi bir dönəmdə mühüm əhəmiyyət kəsb edir. Azərbaycan müstəqilliyini qazandıqdan sonra bu, Vatikan başçısının Azərbaycana ikinci səfəri idi. Vatikan başçıları, adətən, əhalisinin əksəriyyəti müsəlman olan ölkələrə səfərlər etmirlər. Lakin Azərbaycan istisnadır. Azərbaycanda katoliklərin sayının, bir neçə yüz nəfər olmasına baxmayaraq, respublikamızda hökm sürən dini sabitlik Vatikan tərəfindən də maraqla qarşılanır. Prezident İlham Əliyev Roma Papasının Azərbaycana səfərini tarixi hadisə adlandırmışdır. Dövlət başçısı bu səfərin Vatikan-Azərbaycan əlaqələrinin inkişafına böyük töhfə verəcəyini qeyd etmişdi: "Bu səfər bütün bəşəriyyət üçün önəmlidir. Çünki bu səfər, bir də onu göstərir ki, sivilizasiyalararası dialoq yaşayır, davam edir, güclənir və biz çalışırıq ki, bu dialoqa yeni təkan verək... 2012-ci ildə diplomatik əlaqələrimizin 20 illiyinə həsr edilmiş Vatikan muzeylərində Azərbaycan sərgisi keçirilib. İlk müsəlman ölkəsinin sərgisi, məhz Azərbaycan sərgisi idi”.

Papa Fransisk isə çıxışında ölkəmizdə hökm sürən tolerantlığa xüsusi toxunmuş, müxtəlif mədəniyyətlər və dini konfessiyalar arasındakı sabitliyi, ahəngdarlığı yüksək qiymətləndirmişdir. Din xadimləri ilə dövlət xadimlərinin görüşməsi sülhün, əmin-amanlığın bərqərar olmasına töhfədir. Bu səfər də beynəlxalq aləmə, bir daha göstərdi ki, Azərbaycan dini və etnik tolerantlıq nümunəsidir.

### Müqəddəs Pavel Bazilikasında bərpa işlərinə töhfə

Mövcud əlaqələr daha da dərinləşir. Görülən işlərin davamı olaraq Vatikan şəhəri dövləti üzrə qubernatorluq ilə Heydər Əliyev Fondu arasında Müqəddəs Pavel Bazilikasında (Basilica of Saint Paul Outside the Walls) bərpa işlərinə dair müqavilə imzalanıb. Qeyd edək ki, ötən müddətdə Heydər Əliyev Fondu Vatikanda bir sıra bəşəri əhəmiyyət daşıyan tarixi abidələrin bərpasına, mədəni irsin qorunması sahəsində işlərə öz töhfəsini verir. Müqəddəs Pavel Bazilikası Vatikanın ən böyük abidələrindəndir və 1980-ci ildən UNESCO-nun Ümumdünya İrs Siyahısına daxildir. 2025-ci ildə Vatikanda hər 25 ildən bir təşkil olunan Müqəddəs Yubiley İli çərçivəsində 30 milyondan çox katolik zəvvarın bu kilsəni ziyarət etməsi gözlənilir. Bərpa işləri, ilk növbədə, 2025-ci ildə keçiriləcək Müqəddəs Yubiley İli zamanı ziyarətçilərin bu dini ocağa təhlükəsiz girişinin təmin edilməsi məqsədilə aparılır.

Vatikan ilə Azərbaycan arasında əlaqələr ölkəmizin dövlətlərarası qurduğu dostluq və qarşılıqlı əməkdaşlıq münasibətlərinin göstəricisidir.

*Nəzakət ƏLƏDDİNQIZI*




# Formula-1 yenidən Bakıdan start götürdü

## Bakı 21-ci şəhərdir ki, bu oyunlara ev sahibliyi edir

***Azərbaycanın paytaxtı Bakı növbəti dəfə dünya əhəmiyyətli mötəbər idman yarışına ev sahibliyi edir. Bakıda dünyanın ən nüfuzlu idman yarışlarından biri - Formula-1 Avropa Qran-prisi keçirilir. Avtoidmanın zirvəsi sayılan Azərbaycan Qran-Prisini əvvəlki illərdən fərqli olaraq, azarkeşlər bu il Formula 1-in məşhur bütün əyləncəli aktivasiyalarını Bulvar ərazisində görə biləcəklər.***

Bu il yarış həftəsonu Kristal zalında təşkil olunacaq dünya ulduzlarının konsertləri ilə davam edəcək. Sentyabrın 13-də dünyaşöhrətli aktyor və musiqi ulduzu Uill Smit öz unikal musiqi proqramı ilə səhnədə fanatları əyləndirəcək. Eyni axşam, yarış həvəskarlarını Cənubi Afrika Respublikasının məşhur DJ-i və prodüseri "Black Coffee"nin ritmik, enerjili performansı gözləyir. Sentyabrın 14-də isə dünya musiqisinin parlaq ulduzu DJ Balvin Bakı səhnəsində avtoidman həvəskarlarına möhtəşəm gecə yaşadacaq.

### Yarım milyard tamaşaçı auditoriyası

Dünyada yarım milyard tamaşaçı auditoriyası olan Formula-1 yarışının Bakıda keçirilməsi ölkəmizin beynəlxalq idman aləmində qazandığı uğurları bir daha əks etdirir. Birinci Avropa Oyunlarından sonra Formula-1 kimi mühüm yarışın Bakıda keçirilməsi Azərbaycanın idman dövləti olduğunu, bu missiyanın ölkəmizin timsalında hər zaman özünü doğrultduğunu təsdiqləyir. Bütün bunlar ölkəmizin dünyada getdikcə artan nüfuzundan, siyasi və iqtisadi sahədə qazandığı uğurların yetərincə olmasından qaynaqlanır.

Təhlükəsizliyin ən yüksək səviyyədə təmin olunduğu Bakı treki ən sürətli yarışlar kateqoriyasına daxildir. Sülh, tərəfdaşlıq və mədəni müxtəliflik məsələlərinə töhfələrini verən Azərbaycan qitə və dünya miqyaslı tədbirlərə ev sahibliyi edən ölkə olaraq da tanınıb. Müxtəlif məzmunlu tədbirlərin keçirilməsi ölkəmizin sabitlik, əmin-amanlığın hökm sürdüyü diyar olduğunu təsdiqləmiş oldu. İqtisadi inkişafımız da, məhz belə tədbirlərin Azərbaycanda keçirilməsinə geniş imkanlar açıb. Ölkəmizdə kifayət qədər idman yarışları da keçirilib ki, bu da dünyanın idman nəbzinin Bakıda - Şərq ilə Qərbin koloritinin cəmləşdiyi şəhərdə döyünməsinə səbəb olub. Azərbaycanda idmanın əksər növləri üzrə mötəbər yarışlar keçirilib. Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizdə bütün sahələrə olduğu kimi, idmanın inkişafına da xüsusi diqqət və qayğı göstərməsi nəticəsində ölkəmiz son illərdə idmanın inkişafı istiqamətində mühüm uğurlar qazanıb. Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycanın hər bir bölgəsində idman arenalarının, müasir komplekslərin tikilərək yeniyetmələrin, gənclərin ixtiyarına verilməsi ölkəmizdə böyük idmançı ordusunun formalaşmasını şərtləndirib, idmanın kütləviliyi təmin edilib. İdmanın inkişaf etdirilməsi istiqamətində görülən genişmiqyaslı işlər nəticəsində Azərbaycan Avropanın idman mərkəzlərindən birinə çevrilib. Azərbaycan idmançılarının mötəbər beynəlxalq yarışlarda, olimpiadalarda çıxışları da getdikcə daha uğurlu olur. Vurğulamaq yerinə düşər ki, beynəlxalq tədbirlərin, eləcə də, idman yarışlarının təşkilində böyük təcrübəyə malik olan Azərbaycan dünya idmanının tarixində ilk dəfə keçirilən Avropa Oyunlarına ev sahibliyi edərək bu oyunların standartlarını və səviyyəsini təmin edə bildi. Dünyanın 50 ölkəsinin 6 min idmançısının iştirak etdiyi I Avropa Oyunlarında Azərbaycan təmsilçilərinin 21 qızıl medal qazanması və 21 dəfə Azərbaycan bayrağının yüksəldilməsi, Dövlət Himnini səsləndirilməsi idmana olan qayğının göstəricisi idi. Daha sonra dünyanın ən məşhur avtomobil yarışları olan "Formula-1" üzrə Qran-Prisini uğurla keçirdi. 1950-ci ildən etibarən hər il keçirilən "Formula-1"in möhtəşəmliyi üçün paytaxtımızda istənilən şərait yaradılıb. 20 inkişaf etmiş şəhərdə keçirilən "Formula-1" Azərbaycanda yüksək səviyyədə təşkil olunur. Bakı 21-ci şəhərdir ki, bu oyunlara ev sahibliyi edir.

### Bakı yarışı həmişə ilin ən yaxşı Qran-Priləri arasında

Məlumdur ki, Bakıda keçirilən "Formula-1" üzrə dünya çempionatının tamaşaçı auditoriyası bütün qitələri əhatə etdi. Amerika, Avropa, Avstraliya, Asiya və Afrika ölkələrinin televiziya kanalları yarışları müntəzəm yayımlayırlar. Beş yüz milyon televiziya tamaşaçısının Azərbaycan Qran-Prisində dünyanın ən güclü pilotlarının mübarizəsini izləməklə yanaşı, müasirliklə qədimliyin simvollarını özündə birləşdirən Bakı haqqında geniş məlumat əldə edə bilirlər. Yarışların müvəffəqiyyətlə keçirilməsinə Bakı hər zaman tam hazır vəziyyətdə olur. Artıq növbəti "Formula-1" Azərbaycan Qran-Prisi ölkəmizdə kecirilir. "Formula-1" ölkəmizdə həmişə olduğu kimi, yüksək səviyyədə keçiriləcək. Xatırladaq ki, "Formula-1" Yay Olimpiya Oyunları və futbol üzrə dünya çempionatından sonra öz kütləviliyinə görə üçüncü yerdə dayanır.

Yarış zamanı avtomobillər dənizkənarı bulvar boyunca hərəkət edərək, paytaxtımızın ən qədim hissəsi olan İçərişəhər Tarixi-Memarlıq Qoruğunun ətrafında dövr edir. Bu, çoxsaylı xarici televiziya tamaşaçılarına şəhərin mənzərəsini, tarixi yerlərini görməyə imkan yaradır. Xatırladaq ki, Bakıda ilk dəfə "Formula-1" Qran-Prisi 2016-cı ildə təşkil olunub. Baxımlılığı ilə seçilən Bakı yarışı həmişə ilin ən yaxşı Qran-Priləri arasında yer alır. Təhlükəsizlik, infrastruktur hazırlığı, kütləvi tədbirlərin keçirilməsi ilə bağlı təşkilati və texniki bazanın mövcudluğu bunun əyani göstəricisidir. Bakıda pilotlar qeyri-adi ab-havası ilə seçilən, əfsanəvi tarixi yerləri əhatə edən və heç bir yerdə bənzəri olmayan trekdə yarışırlar. Təhlükəsizliyin ən yüksək səviyyədə təmin olunduğu Bakı treki ən sürətli yarışlar kateqoriyasına daxildir. Trek Bakının tarixi məkanlarından, dəniz sahilindən keçməklə azarkeşlərdə xoş ovqat yaratmış olur. Təbii ki, növbəti yarış da uğurla başa çatacaq. Bu dəfə də Bakı dünya tamaşaçılarına maraqlı idman yarışı təqdim etməklə yanaşı, Azərbaycanın belə mötəbər yarışlara uğurla ev sahibliyi etdiyini, təşkilatçılıq bacarığını bir daha nümayiş etdirəcək.

***Zümrüd BAYRAMOVA***

# Qafqaz İslam Ordusunun zəfər yürüşü



***Bakı işğaldan azad edilməsəydi, bu şəhərin indi Azərbaycanın paytaxtı olması sual altında qalardı. Çünki bolşeviklər Bakını Azərbaycandan ayıraraq, onu muxtar şəhərə çevirmək istəyirdilər. Qafqaz İslam Ordusu sentyabrın 13-dən 14-nə keçən gecə Bakı üzərinə başlanan növbəti hücumla qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirdi.***

Elə həmin günün axşamı Denstervilin qoşunu gəmilərlə Bakını tərk edərək, Ənzəliyə qayıtdı. Sentyabrın 15-də isə döyüşlər o qədər də uzun sürmədi. Həmin gün Sentrokaspi Diktaturası məğlub oldu. Bakının azad olunması üçün türk-Azərbaycan qüvvələrinin apardıqları iki günlük əməliyyat parlaq qələbə ilə başa çatdırıldı. 1918-ci ildə öz müstəqilliyini elan etməsi ərəfəsində Azərbaycanda mürəkkəb və təhlükəli hərbi-siyasi şərait mövcud idi.

Belə ki, Cümhuriyyətin elan edildiyi sərhədlər daxilində olan ərazilərin çoxu, o cümlədən də Bakı şəhəri Azərbaycan xalqının müstəqilliyinə və mövcudluğuna qənim kəsilmiş yad qüvvələrin işğalı altında idi. Obyektiv tarixi səbəblər üzündən Azərbaycan Xalq Cümhuriyyəti elan ediləndə onun müstəqilliyini müdafiə etməyə qadir olacaq yetərli milli hərbi qüvvələr hələ formalaşmamışdı. Azərbaycanın siyasi, iqtisadi, mədəni mərkəzi olan Bakı şəhəri daşnak-bolşevik qüvvələrinin nəzarəti altında idi. Bu qüvvələr Bakıda milli hərəkatın genişlənməsinə qətiyyən razı deyildilər və öz məqsədlərinə nail olmaq üçün 1918-ci ilin martında Bakıda azərbaycanlı əhaliyə qarşı amansız soyqırımı həyata keçirmişdilər.

Artıq Bakının işğaldan azad olunmasından 106 il ötür. Tarixdən bizə məlumdur ki, 1918-ci il sentyabrın 15-də ağır döyüşlərdən sonra Qafqaz İslam Ordusu Azərbaycan xalq könüllü dəstələrinin köməyi ilə Bakını azad edib. Şəhər Stepan Şaumyanın bolşevik-daşnak rejimindən sonra hakimiyyəti ələ keçirmiş menşevik-daşnak tör-töküntülərindən – "Sentrokaspi diktaturası"ndan təmizləndi. 1918-ci il sentyabrın 17-də Fətəli xan Xoyski kabinetinin təşkilindən üç ay sonra Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Bakıya köçdü. Bakı paytaxt elan olundu. Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyət dairəsi genişləndi.

Tariximizin ən şanlı səhifələrindən olan Azərbaycan Xalq Cümhuriyyətinin qurulması və sonrakı mövcudluğunda Bakının azad edilməsi mühüm rol oynamışdır. Çox böyük strateji mövqeyə malik olan Bakıya o dövrdə olan maraq və diqqəti nəzərə alsaq, onun azad edilməsinin də heç də asan olmadığını anlamaq olar. Belə bir tarixi yaşamış Azərbaycan mövcud olan zaman kəsiyində yaşantılarını salnamələr əsasında diqqətdən keçirib. Bu gün həmin hadisədən bir əsrdən artıq zaman ötsə də, Azərbaycan tarixinin müəyyən bir hissəsi olan 15 sentyabrı xatırlamaq zəruri məqamlardandır.

1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyi elan edildi və Azərbaycan Xalq Cümhuriyyəti quruldu. Gəncə şəhəri Azərbaycanın müvəqqəti paytaxtı elan edildi. Həmin zaman Bakı yadellilərin əlində idi və Azərbaycan dövlətinin şəhəri azad etmək üçün kifayət qədər qüvvəsi olmadığından xarici yardıma ehtiyac duyulurdu. Osmanlının hərbi naziri Ənvər paşanın qardaşı Nuru paşanın komandanlığı altında Qafqaz hərəkatı başladı. Tarixi mənbələrdə qeyd olunduğu kimi, cərgələrini yerli əhalidən doldurmaqdan və Bakı şəhəri azad edildikdən sonra problem yaranmasın deyə, ordu Qafqaz İslam Ordusu adlandırıldı. Hərəkatın hüquqi-siyasi təməlini Batum müqaviləsi təşkil edirdi.

## QAFQAZ İSLAM ORDUSUNUN AZADLIQ MİSSİYASI

Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu Bakının işğaldan azad olunmasında müstəsna rol oynayıb. 1918-ci ilin mayında Azərbaycanın müstəqilliyinin elan olunmasına baxmayaraq, ölkə ərazisinin bir hissəsi, Bakı və ətraf rayonlar hələ də erməni-bolşevik işğalı altında idi. Belə bir şəraitdə özünün çox ağır durumuna baxmayaraq, Osmanlı dövləti Azərbaycanın ərazi bütövlüyünü təmin etmək məqsədilə Nuru Paşanın komandanlığı ilə hərbi qüvvələrini bura göndərib. Qafqaz İslam Ordusu Gəncədən azadlıq yürüşünü başlamaqla, bolşevik-daşnak qüvvələrini darmadağın etməklə, nəhayət, 1918-ci il sentyabrın 15-də Bakı şəhərinə daxil olub. Bakı camaatı sentyabrın 15-də Qafqaz İslam Ordusu ilə birgə şəhərə daxil olub. Mənbələrdə qeyd olunduğu kimi, Nuru paşanın verdiyi əmrə əsasən, Şimal Cəbhəsində yerləşən 15-ci piyada diviziyası komandanının sərəncamında 38 alay, 2 süvari alayı, Azərbaycan türklərindən ibarət süvarilər və milis batareyaları var idi. Qalan bütün hərbi qüvvələr 13–14 sentyabr gecəsində qərb cəbhəsinə göndərildi. Bakı cəbhəsindən əsl hücuma keçəcək 5-ci Qafqaz piyada diviziyasının tabeliyindəki 9, 10, 13 və 56-cı piyada alaylarının orduları bütün günü bölgədəki dəmir yolunun ətrafında olan vadilərdə düşmən kəşfiyyatçılarından gizlənərək keçirdi. Cəbhədəki topçu dəstəsinin böyük bir bölüyü də 5-ci Qafqaz piyada diviziyasının tabeliyinə verildi. Üstəlik iki diviziyanın sərəncamındakı hərbi qüvvələrin münasibətində də böyük bir qeyri-sabitlik var idi. Qərb cəbhəsindəki 1.500 metrlik sahədə dörd alay döyüşəcəkdi. Belə dar bir sahədə bu qədər ordunun döyüş qabiliyyətini tam göstərərək müharibədə iştirakı bir qədər çətin olardı.

Təbii ki, Qafqaz İslam Ordusu bu azadlıq yürüşünə başlayarkən, azərbaycanlı əhali də ərzaqdan tutmuş silaha qədər kömək edirdi. Çoxları da öz cavan övladlarını Qafqaz İslam Ordusunun tərkibinə vuruşmağa göndərirdi. Ona görə təbii ki, bir tərəfdən dinc əhali, bir tərəfdən Qafqaz İslam Ordusu mənfur düşməni Azərbaycan torpağından çıxarmaq üçün əlindən gələni etdi. Ümumilikdə, Qafqaz İslam Ordusu Azərbaycan xalqına qarşı S.Şaumyanın başçılıq etdiyi daşnak-bolşevik rejiminin həyata keçirdiyi soyqırımların dayandırılmasında və Azərbaycan Xalq Cümhuriyyətinin tarixində, xüsusilə milli ordunun yaranmasında və formalaşmasında mühüm rol oynamışdır

## AZƏRBAYCAN VƏ TÜRK QARDAŞLIĞININ RƏMZİ

1918-ci il sentyabrın 15-də Bakının işğaldan azad edilməsi Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı tarixinə yazılan şanlı səhifələrdəndir. Bakının azad edilməsi əhəmiyyətinə görə Cümhuriyyətin elan edilməsindən sonra ikinci böyük tarixi hadisəyə çevrildi. Şəhərin azad edilməsi Azərbaycan və türk silah qardaşlığının rəmzi idi. Qardaşların birliyi Bakıya dair iyrənc planları darmadağın etdi. Bu hadisə göstərdi ki, Azərbaycan və Türkiyə birgə hərəkət etdikdə heç kim onları dayandıra bilməz. Milli ruhu yüksələn azərbaycanlılar Azərbaycanın şimal torpaqları çarizm tərəfindən işğal edildikdən sonrakı bütün dövrdə ilk dəfə olaraq Bakı küçələrində başlarını dik tutaraq, özlərinə güvənərək gəzməyə başladılar. Bu gün də biz qardaş ölkələrin birlik və dostluğunu görürük.

Azərbaycanın çətin günlərində Türkiyə Azərbaycanın yanında oldu. Bu gün Azərbaycan müstəqil dövlətdir və dost qardaş ölkələrlə sıx diplomatik əlaqələri qurulmuşdur. Dostluq və qardaşlığa söykənən Azərbaycan Türkiyə münasibətləri bu gün daha yüksək bir mərhələdədir. Ulu Öndər Heydər Əliyevin ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətdə qayıdışından sonra dövlətlərarası əlaqələrin artmasına, əməkdaşlığın genişlənməsinə xüsusi diqqət yetirilmişdir. "Bir millət, iki dövlət", deyən Ulu Öndər Heydər Əliyevin dövlətlərarası yaratdığı qardaşlıq münasibətlər bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən çox yüksək səviyyədə davam etdirilir.

## AZƏRBAYCAN-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNDƏ YENİ DÖVR

Bu birliyin və qardaşlığın sarsılmaz nümunəsinin Vətən müharibəsində bir daha şahidi olduq. "Biz Azərbaycanın yanındayıq. Hadisələrə müdaxilə edənlər öndə bizi görəcəklər!", - söyləyən Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan əsl qardaşlıq nümunəsi göstərdi. Şuşa Bəyannaməsinin imzalanması Azərbaycanın müstəqillik tarixinə əbədi həkk olundu və Azərbaycan-Türkiyə münasibətlərində keyfiyyətcə yeni bir dövrün başlanğıcını qoydu. Bu mühüm tarixi sənəd ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin təntənəsi oldu və dövlətlər arasında əməkdaşlığın strateji əhəmiyyət kəsb edən sahələrini əhatə edir. Dövlət başçısı "Birgə Bəyannamədə tarixi Qars müqaviləsinə istinad edilir",- deyərək bildirib.

44 günlük Vətən müharibəsində Türkiyə Azərbaycanın haqq işini dəstəkləyərək həm siyasi, həm də mənəvi baxımdan ona dəstək oldu. Kökləri dərin olan bu dostluq və qardaşlıq sarsılmazdır. Bu gün Azərbaycan zəfər çalmış dövlətdir və öz siyasi iradəsi ilə bütün dünyada nüfuza sahibdir. İşğaldan azad olunan torpaqlarımızda müstəqil Azərbaycan Bayrağı dalğalanır. Xalqımız öz torpaqlarına sahibdir və bu torpaqlarda böyük abadlıq-quruculuq işləri aparılır.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatına

2024-cü il 1 sentyabr tarixində keçirilmiş Azərbaycan Respublikası Milli Məclisinə seçkilərdə Yeni Azərbaycan Partiyasının qələbəsi münasibətilə partiyanın rəhbərliyini və bütün üzvlərini Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsi adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycanın demokratik, hüquqi, müstəqil və firavan dövlətçiliyin inkişafı, ədalətli, azad və bərabərhüquqlu cəmiyyət quruculuğu hədəflərinə nail olmaq üçün səy göstərən Yeni Azərbaycan Partiyası son 30 ildə ölkənin siyasi sistemində mühüm aparıcı qüvvə olmuşdur. İnanırıq ki, Yeni Azərbaycan Partiyası bundan sonra da inkişaf edəcək, Azərbaycanın ictimai-siyasi həyatında öz rolunu və təsirini saxlayacaq, eyni zamanda, ölkənin regionda və dünyada mövqeyinin və nüfuzunun daha da yüksəldilməsinə öz töhfəsini verəcəkdir.

Vyetnam Kommunist Partiyası Yeni Azərbaycan Partiyası ilə əlaqələrin inkişafına hər zaman önəm verir. Vyetnam ilə Azərbaycan arasında ənənəvi dostluq və çoxşaxəli əməkdaşlığın təşviqinə mühüm töhfə verən partiyalararası əlaqələr Vyetnam Kommunist Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında 2023-cü ilin noyabrında imzalanmış əməkdaşlıq sazişi əsasında daim möhkəmlənir və inkişaf edir. Ümid edirik ki, partiyalarımız Vyetnam və Azərbaycan xalqlarının mənafeyi naminə əməkdaşlığı bundan sonra da gücləndirməkdə davam edəcəklər.

Fürsətdən istifadə edərək, sizlərə möhkəm cansağlığı və şərəfli işinizdə uğurlar, Yeni Azərbaycan Partiyasına yeni nailiyyətlər, Azərbaycan xalqına xoşbəxtlik və rifah arzu edirəm.

Hörmətlə,
Le Hoay Çunq
Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsi Katibliyinin üzvü,
Mərkəzi Komitənin Xarici əlaqələr şöbəsinin müdiri.

# USAİD vasitəsi ilə genişləndirilən CASUS ŞƏBƏKƏSİ

***Casus şəbəkəsini genişləndirməkdə maraqlı olan, bunun üçün də əldən-ayaqdan gedən USAİD barədə məlumatlıyıq və bilirik ki, bu qurumum fəaliyyətində müsbət gözlənti barədə düşünməyə belə dəyməz. Məsələ burasındadır ki, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin, yəni USAİD kimi tanıdığımız həmin qurumun Ermənistana nağd yardımı iki dəfədən çox artıracağını, daha dəqiq desək, 120 milyon dollardan 250 milyon dollara qədər artıracağını erməni mediası həvəslə vurğulayır və sevincə düşdüyünü də gizlətmir. Görünür, işğalçı ölkənin mətbuatı hələ də fərqində deyil ki, USAİD məhz Ermənistanda özünün casus şəbəkəsini genişləndirmək niyyətindədir, yardım etmək niyyətində yox. Amma haylar başa düşməlidirlər ki, bu qurum yardım adı ilə sadəcə olaraq, Ermənistanı satın alır və satın aldığı ölkədə də casus şəbəkəsini genişləndirir ki, Cənubi Qafqazda da "özünə yer edə bilsin".***




### Özünü dünyanın ən böyük yardım təşkilatı kimi sırımağa çalışan USAİD alət olmaq ənənəsinə sadiq ölkələri şirnikləndirir

Xatırladaq ki, bu vaxta qədər USAİD özünü dünyanın ən böyük yardım təşkilatı kimi sırımağa çalışıb və Ermənistan kimi marionet ölkələrin bu qurumu həvəslə "qarşılamasından" belə görünür ki, alət olmağa alışqan ölkələrdə haradasa istədiyinə də nail ola bilib. Bəli, bilirik ki, USAID təqribən 27 milyard dollarlıq büdcəyə sahibdir və öz büdcəsi hesabına bir çox ehtiyac və səfalət içində olan ölkələri, ələlxüsus alət olmaq ənənəsini hələ də yaşadan Ermənistan kimi ölkələri, iyanələr almağa öyrəncəli olan erməni xalqı kimi toplumu şirnikləndirməyi bacarır. Bu qurum öz maliyyə yardımı sayəsində hansısa marionet ölkəni tez bir zamanda ələ alır və həmin ölkədə əvvəlcə casus şəbəkəsini yaradır, sonra da "bildiyini" edir. Daha dəqiq desək, öz vəsaitlərinin bir hissəsini hansısa ölkəyə yardım adı ilə ayırmaqla, əslində, yardım etmir, sadəcə olaraq, həmin ölkəni bir növ satın alır. Bəli, bu qurum külli miqdarda vəsaiti yardım adı ilə ayırır, amma xoş niyyətlə deyil, çirkin niyyətlə ayırır və ayırdığından da dəfələrlə artıq vəsait qoparacağına ümid edir. Müqayisə və aydınlıq üçün diqqətə çatdırmaq istərdik ki, təkcə 2023-2025-ci illər ərzində təşkilatın büdcəsindən guya "müxtəlif ölkələrdə vətəndaş cəmiyyəti quruculuğunu dəstəkləmək üçün" 9 milyard dollar ayrılıb ki, bu heç də kiçik rəqəm deyil, böyük rəqəmdir, amma ələ keçirmək istədiyi çox güman ki, budan da dəfələrlə çoxdur. Eyni zamanda, donor fondları və USAİD-in yardım mexanizmləri müxtəlif ölkələrdə "demokratik inkişafı dəstəkləmək" bəhanəsi ilə daha çox müxalifət təşkilatlarını dəstəkləmək üçün ortaya atılır, müxtəlif qrantların verilməsi yolu ilə maliyyələşdirmə həyata keçirilir və həmin ölkədə olan qüvvələr ələ alınır. Bundan sonra da elə ələ alınmış həmin qüvvələrin "əli ilə" də həmin ölkələrin daxilində süni şəkildə xaos yaradılır və beləliklə də bulanıq suda balıq tutmaq istəyən həmin o USAİD öz çirkin niyyəti üçün münbit şərait formalaşdırmağa çalışır.

### Ermənistanın istifadə olunması, ələ alınması planlaşdırılır və yardım adı altında çirkin niyyətlərin həyata keçirilməsi nəzərdə tutulub

Amerikanın guya bir yardım təşkilatı kimi özünü tanıtmağa çalışan USAİD əslində, hansı ölkəyə "burnunu soxubsa" gərginliyin artırılması üçün əlindən gələni edib. Biz bununla bağlı çoxlu sayda nümunələr göstərə bilərik. Amma əsl nümunəni elə Ermənistanın timsalında göstərmək daha düzgün olar və tam yerinə də düşür. Rəsmi İrəvanda qarışıqlıq yaratmaq, Amerikanın öz istədiyi layihəni, daha dəqiq desək, qərbyönümlü Paşinyanı hakimiyyətə gətirmək üçün Ermənistanda hansı oyunlar oynadığı artıq bütün dünya ictimaiyyətinə bəllidir. Bəllidir ki, məhs ABŞ kimi bir hegemonluq iddiasında olan ölkənin maliyyə dəstəyi ilə qarışdırılan Ermənistanda hakimiyyət başına amerikalıların istədikləri gətirildi. Bunun üçün əvvəlcədən "yağlı vədlər" verildi, az qala qızıldan dağlar vəd olundu, amma hələ də vədlərin reallaşmamasından bəlli olur ki, Ermənistan ictimaiyyəti, erməni cəmiyyəti aldadıldı və istifadə olundu. Görünür indi də həmin ölkə ictimaiyyətinin, erməni cəmiyyətinin, bütövlükdə Ermənistanın istifadə olunması, ələ alınması planlaşdırılır və yardım adı altında çirkin niyyətlərin həyata keçirilməsi nəzərdə tutulub.

Vaşinqton artıq 2024-cü il aprelin 5-də Nikol Paşinyanın, Ursula fon der Leyenin və Antoni Blinkenin iştirakı ilə Ermənistan-Aİ-ABŞ formatında keçirilən görüşdən sonra əldə edilmiş Brüssel razılaşmalarında əksini tapan bir sıra öhdəlikləri icra etməyə başlayıb. Məhz aprelin 5-də keçirilən görüşdən sonra Ermənistan da Rusiya sərhədçilərinin İrəvan hava limanından çıxarılması məsələsini qaldırıb. Bundan sonra da Rusiya sərhədçilərinin çıxarılması prosesi avqustun 1-də başa çatıb və elə ertəsi gün ABŞ Zəngəzurda yerləşən Ermənistana silah və hərbi personal göndərib. Göründüyü kimi, sadalanan faktlar bir sıra məqamlara aydınlıq gətirilməsi üçün yetərlidir. Faktlar əlbəttə, onu deməyə əsas verir ki, ABŞ gərginliyi artırmaqla regionda təsirini genişləndirmək üçün Ermənistandan tramplin kimi istifadə etməkdədir və ermənilər özləri də alət olmağa razıdırlar.

### Məqsəd heç də sülhün, təhlükəsizliyin təmin edilməsi deyil və təxribat fəaliyyətinin məntiqi ilə tamamilə üst-üstə düşür

Əlbəttə ki, 2024-cü il iyulun 15-dən 24-dək Ermənistan Respublikası ərazisində keçirilmiş Amerika-Ermənistan "Qartal tərəfdaşı 2024" hərbi təlimləri də təsadüfi sayıla bilməz. Həmin təlimlərin keçirilməsi də bir sıra suallar doğurur. Ortaya çıxan suallardan da bəlli olur ki, sözügedən hərbi təlimlərin özü də Cənubi Qafqazda, məhz regionda geosiyasi məqsədlərə çatmağa yönəlmiş strategiyanın bir elementidir. Hər halda, ABŞ istənilən bir planı ortaya atmaqla, birbaşa olaraq, bölgəyə "burun soxmuş" olur və məqsəd heç də sülh, yaxud da təhlükəsizliyin təmin edilməsi deyil.

Belə görünür ki, USAİD tərəfindən Ermənistana ayrılan vəsaitin özü də ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin Cənubi Qafqazdakı təxribat fəaliyyətinin məntiqi ilə tamamilə üst-üstə düşür. Hər halda, ötən ilin oktyabrında USAİD-in Gürcüstanda baş vermiş qalmaqalla birbaşa əlaqəli olduğunu xatırlamaq qurumun niyyətini müəyyən etmək üçün bəs edir. Yəqin ki, Gürcüstanda dövlət çevrilişi təşkil etmək istəyərkən USAİD yaxalanıbsa, deməli, hansısa yardımdan, köməkdən, xoş niyyətdən söhbət belə gedə bilməz. Əgər Gürcüstanın xüsusi xidmət orqanları sentyabrın 26-dan 29-dək Tbilisidə keçirilən təlimlərin materiallarını dərc edibsə və bu agentliyin dəstəyi ilə çevriliş hazırlığını təsdiqləyibsə, deməli, hər şey göz önündədir və gün kimi aydındır.

### USAİD üçün Azərbaycanın deyil, məhz Ermənistanın ələ alınması çox asan görünür deyə haylar maliyyə əsarətinə düşürlər

Xatırladaq ki, USAİD kimi tanınan qurum Azərbaycana da burun soxmağa imkan tapmışdı, amma ölkəmizdə öz çirkin niyyətini reallaşdıra bilmədi. Məhz milli birlik, həmrəylik sayəsində, xalqın və hakimiyyətin birliyi ilə ölkəmizdə bu qurumun planları puç edildi. Yardım adı altında USAİD-in casus şəbəkəsini gemişləndirmək niyyəti baş tutmadı. Dəfələrlə bu qurum müxtəlif cəhdlər etsə də, çirkin niyyətlərinin qarşısı zamanında alındı və USAİD-in məhz Azərbaycanda nəyə isə nail olmaq ümidləri boşa çıxdı. Bir növ ölkəmizdən əlini üzdü, çünki Azərbaycandan alət kimi istifadə etmək cəhdlərinin uğursuz olduğuna zərrə qədər də şübhə yeri qalmadı.

Görünür, USAİD üçün artıq Ermənistan, ələ alınması çox asan görünən ölkə hesab olunur. USAİD məhz Ermənistan hakimiyyətini ələ alacağına tamamilə əmindir deyə istədiyini etməkdən çəkinmir. Paşinyan hökumətinin USAİD tərəfindən aktiv maliyyə əsarətinə çevrilməsi də bu baxımdan təsadüfi sayıla bilməz. Bu məqam onu deməyə əsas verir ki, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi məhz Cənubi Qafqazda casusluq fəaliyyətini həyata keçirmək üçün Ermənistanı ən etibarlı sığınacaq hesab edir. Ələlxüsus da, Azərbaycan və Türkiyənin maraqlarına qarşı yönələn fəaliyyət üçün Ermənistan əbəs yerə seçilməyib və ermənilərin xislətindən istifadə olunduğu dərhal özünü göstərir. Azərbaycana qarşı əsassız ittihamlar, əsassız və gülünc şəkildə "Qarabağ ermənilərinin hüquqlarını qorumaq" bəhanəsinin özü belə Ermənistanda vətəndaş cəmiyyətinin şüurunu manipulyasiya etməkdən başqa bir şey deyil və bunu hər kəs çox yaxşı bilir. Hər kəs çox yaxşı bilir ki, USAİD-in fəaliyyəti Ermənistan-Azərbaycan arasında nəzərdə tutulan nizamlanmaya, danışıqlara, ələlxüsus sülh gündəliyinə zərbə vurmağa yönəlib. Amerikalılar hamını inandırmağa çalışırlar ki, onların İrəvana doğru addımları müstəsna olaraq Ermənistanın təhlükəsizliyini və sərhədlərinin toxunulmazlığını gücləndirmək məqsədi daşıyır. Amma 30 il ərzində Azərbaycanın əraziləri işğal altında olduğu bir vaxtda ABŞ Azərbaycanın ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını heç xatırlamadı da. Sərhədlərin toxunulmazlığı əsrin üçdə birinə yaxın müddət ərzində bir dəfə də olsa amerikalıların heç yadına da düşmədi. Sözsüz ki, belə ikili standartların fonunda hansısa ali dəyərlərdən danışmaq belə yersizdir və görünən odur ki, USAİD kimi tanınan ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi regionda ancaq casus şəbəkəsi yaratmaq, həmin şəbəkəni genişləndirmək niyyəti güdür.

***İnam Hacıyev***





# Aludə, ya asılı: hamısı təhlükəlidir





***Asılılıq və ya aludəçilik insanın istifadə etdiyi zərərli maddə, alkoqollu içkilər və ya hər hansı bir davranış üzərində nəzarəti itirməsidir. Təkrar-təkrar istifadə olunan zərərli bir maddə və ya nəzarətsiz həyata keçirilən davranış asılılıq riski daşıyır. İnsanlar həyatda çox şeyə aludə ola bilərlər, alkoqol, narkotika, siqaret, qumar, texnologiya, hər hansı əşya və ya davranış.***

Asılılıq bir çox faktorun bir araya gəlməsi nəticəsində yaranan arzuolunmaz bir vəziyyətdir. İnsan doğulduğu andan öyrənməyə və ətraf aləmin təsirlərinə məruz qalmağa başlayır. Bu müddət ərzində o, məruz qaldığı vəziyyətlərdən qorunmaq üçün bir mübarizə üsulu inkişaf etdirməlidir. Onun inkişaf etdirdiyi bu mübarizə metodunun sağlam və ya zərərli olması, insanın yaşadığı mühit, valideyn münasibəti, sosial-mədəni mühitdən asılıdır. Əgər valideynlərin övladlarına qarşı qeyri-sağlam münasibəti varsa, hər hansı bir ailə üzvündə asılılıq olubsa, təhlükəli dost çevrəsindədirsə, təhsil və ya həyatı uğursuzdursa, asılılığın hər hansı bir forması yaranır.

Ümumdünya Səhiyyə Təşkilatının Xəstəliklərin Beynəlxalq Təsnifat Təlimatında zərərli maddələr istifadəsi və asılılıq davranışı nəticəsində yaranan pozuqluqlar "psixi və davranış pozuqluqları" kimi xarakterizə edilir. Amerika Psixiatriya Assosiasiyasına görə isə, bütün asılılıqlar daha yaxşı hiss etmək və daha yaxşı performans göstərmək istəyi üzərində inşa edilir. Kimyəvi asılılıqlar çox vaxt insan könüllü olaraq həmin maddədən istifadə etmək qərarına gəldikdə başlayır. Heç kəs aludə olmaq arzusu ilə zərərli maddələrdən istifadəyə başlamır, əvvəl dadına baxmaq istəyir,sonra əhvalını düzəltmək məqsədi ilə qəbul edir və beləcə dəfələrlə həmin maddədən istifadə etdiyi üçün, onun istifadəsinə nəzarəti itirir. İnsan bu maddənin gündəlik həyat funksiyalarını pozduğunu anlasa da, istifadəsini dayandıra bilməz. Beləliklə, zərərli maddəyə olan asılılıq könüllü istifadədən məcburi istifadəyə doğru inkişaf edir.

Asılılığa səbəb olan amillər əslində bir deyil. Asılılıq üçün bir çox amil səbəb ola bilər. Asılılıq prosesinə psixoloji və bioloji amillər təsir edir. İnsan əvvəlcə maraq və qorxu səbəbindən ondan istifadə etməyə cəhd edə bilər. Asılılıq beyindəki dopaminə təsir göstərir. Dopomin hormonu düşüncə, hiss, motivasiya, hərəkət, diqqət və qərar qəbul etmə kimi bir çox əsas funksional proseslərdə iştirak edir. Dopamin hormonunun zədələnməsi nəticəsində beyin düzgün işləməməyə başlayır və asılılıq yaranır. Ona görə də asılılığı həm də beyin xəstəliyi kimi qəbul edə bilərik.

Texnologiyadan və internetdən nəzarətsiz istifadə nəticəsində yaranan davranış asılılıqları da aludəçilikdir. Oyun oynamaq, qumara meyllilik, sosial media və smartfonlardan həddindən artıq istifadə texnologiya asılılığı olaraq təyin olunur. Xüsusilə böyüklərin oynadığı oyunlara pul əlavə olunduqda qumar asılılığı riskinin artdığı və qumar aludəçisi olduğu qaçılmazdır. Xəstəliklərin Beynəlxalq Təsnifatı Təlimatında qumar oyunları davranış asılılıqları arasındadır. Qumar üzərində başlama, intensivlik, müddət, dayandırma və kontekst baxımından nəzarətin olmaması, qumar oynamağı digər həyat maraqlarından, ailədən, işdən və ya gündəlik fəaliyyətlərdən üstün tutmaq, uduzmağına baxmayaraq qumar oynamağa davam etmək qumar aludəçisi olmaq deməkdir.

Qumar aludəçiliyi uzun illər psixiatriya sahəsində impuls nəzarət pozuqluğu kimi qəbul edilsə də, son illər narkotikdən asılı olmayan asılılıqlar kateqoriyasına aid edilməyə başlanıb. Bu asılılıq artan miqdarda pul mərc etmək, qumar oynamaq istəyini boğa bilməmək fonunda baş verir. Qumar aludəliyi cəmiyyətin əsasını təşkil edən ailə institutuna, eləcə də insanın özünə maddi-mənəvii ziyan vurduğuna görə ictimai təhlükə sayıla bilər. Qumar aludəçiliyi insana, ailəyə və cəmiyyətə maddi, mənəvi, psixoloji cəhətdən zərər vurur. Amerika Psixiatriya Assosiasiyası bildirir ki, qumar oynayan insanlar ümumiyyətlə öz davranışlarını qohumlarından, xüsusən də ailə üzvlərindən gizlədirlər, maddi sıxıntıları olanda əvvəlcə ailələrindən deyil, başqalarından kömək istəyirlər. Borc almağa kimsə qalmadıqda evdən oğurluq etməyə başlayırlar. Bu xəstəliyi müalicə etmək mümkündür. Zərərli maddə asılılığının müalicə modeli patoloji qumar asılılığının müalicəsində tez-tez istifadə edildiyi üçün bu insanlar da həmin müəssisələrdə müalicə oluna bilərlər.

Dünyadakı ən dəhşətli asılılıq narkotik maddələrdə olan aludəçilikdir. Dünyada ən azı 275 milyon insan narkotikdən istifadə edir və bu insanların 13 faizi (təxminən 36 milyonu) narkomaniyadan müalicə alır. Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq İdarəsinin (UNODC) statistikası göstərir ki, 2030-cu ilə qədər bütün qitələrdə milyonlarla insanın narkotik istifadəsi daha da artacaq. Fərqli dərman növlərinin hər bir qitədə daha geniş istifadə edildiyini ortaya qoyan hesabatda ümumi məlumatlar dünyada narkotik istifadəsinin hər yerdə artmağa meyilli olmasından bəhs edilir.

Siqaretdən olan asılılıq da həm istifadə edənə, həm də çevrəsinə zərər verir. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, nikotin asılılığı istifadəyə nəzarət etmək qabiliyyətinin pozulması, tütündən istifadəyə digər məşğuliyyətlərdən daha çox üstünlük verilməsi, zərər görməsinə baxmayaraq, istifadənin davam etdirilməsi, potensial təhlükəli vəziyyətlərdə tütündən təkrar istifadə, ailədə, işdə vərdişini davam etdirmək, ev şəraitində istifadə etmək kimi problemlər tütündən asılı olmaq deməkdir.

Tütün təkcə istifadəçilər üçün deyil, həm də istifadə etməyənlər üçün ciddi sağlamlıq problemlərinə səbəb ola bilər. Tütün məmulatlarının tərkibindəki toksin və xərçəngə səbəb ola biləcək digər maddələr yanan siqaretdən havaya ötürülərək siqaret çəkənin yanında olanlar üçün zəhərli mühit yaradır. Bu səbəbdən tütündən istifadə etmədiyi halda tütünə məruz qalanların vəziyyəti də narahatlıq doğurur. Bu vəziyyət passiv siqaret çəkmə adlandırılır. Hər il dünyada 700 milyon uşaq tütün tüstüsünə məruz qalır, 600 min insan isə siqaret çəkməsə belə tütün tüstüsünün təsirinə məruz qaldığı üçün ölür. Başqalarının istehlak etdiyi tütün tüstüsünə məruz qalma nəticəsində ölənlər, yol qəzaları və narkotik istifadəsi nəticəsində baş verən ölümlərdən qat-qat çoxdur. Tütün tüstüsünə məruz qalma xərçəng, amfizem və infarkt kimi bir çox ölümcül xəstəliklərə səbəb olur. Uşaqlar tütün tüstüsünün zərərli təsirlərinə daha həssasdırlar.

***Lalə Mehralı***

ANALİZ

# Frank Şveberin Azərbaycana qarşı qərəzinin arxasında erməni lobbisi dayanır

***Bu günlər Azərbaycan qonaqlı-qaralıdır. Dünyanın hər bir bölgəsindən müxtəlif sahənin insanları ölkəmizə səfərlər edirlər. Bu səfərlər yalnız turist və ya tanışlıq səfərləri deyil, həm də qonaqlar Azərbaycanda təşkil edilən nüfuzlu beynəlxalq tədbirlərdə iştirak etmək üçün ölkəmizə gəlirlər.***

Formula 1 Azərbaycan Qran-Prisinin ardınca, ölkəmizdə COP29 konfransı keçiriləcək. Bu baxımdan növbəti dəfə Azərbaycan dünyanın diqqət mərkəzindədir. Dostlar mötəbər tədbirlərin iştirakçısı olmaq üçün ölkəmizə gəlməyi planlaşdırırlar. Daha doğrusu, artıq Formula 1 Qran Prisinin başlaması ilə əlaqədar xarici qonaqlar ölkəmizə gəlməyə başlayıblar. 13-15 sentyabr tarixlərində baş tutacaq Formula 1 Qran Prisinə ölkəmiz 8-ci dəfə ev sahibliyi edəcək. Yarış həftəsində komandalar yarışa fəal hazırlaşaraq vəsiqə qazanacaq və yarışda iştirak edə biləcək. Təbii ki, bu maraqlı idman yarışını hər kəs izləmək istəyindədir. Ona görə də, istər xarici qonaqlar, istərsə də ölkə vətəndaşları arasında böyük coşqu mövcuddur. Digər diqqət və maraq kəsb edən tədbir isə noyabrın əvvəlində ölkəmizdə keçilməsi planlaşdırılan COP9 konfransıdır. Bu kimi beynəlxalq miqyaslı idman yarışları və konfransları öncəsi bəzi yerli və xarici maraqlı qüvvələr ölkəmiz haqqında qərəzli, heç bir məntiqi əsası olmayan informasiyalar paylaşır, ittihamlar irəli sürürlər. Demək olar ki, bu cür vəziyyət xarici məkrli dairələr tərəfindən ənənəyə çevrilib. Eurovosion müsabiqəsi, Avropa Oyunları, İslam Oyunları, Formula-1-in yarışları ərəfəsi eyni proseslər müşahidə edilmişdir. Bu dəfə də köhnə bayatılar səslənməkdədir. Fərq ondan ibarətdir ki, bu dəfə musiqinin sözləri və bəstəkarı elə xarici məkrli qüvvələrin özləridir. Yəni əvvəlki tədbirlər öncəsi xarici anti-Azərbaycan dairələr Bakıdakı təmsilçiləri olan AXCP sədri Əli Kərimli, Milli Şuranın rəhbəri Cəmil Həsənli, Real partiyasının sədri İlqar Məmmədov, Müsavat başqanı İsa Qəmbər və digərləri vasitəsi ilə Azərbaycanın uğurlarına kölgə salmağa xidmət edən qarayxama kampaniyası aparılırdısa, hazır ki məqamda xarici şəbəkə ideoloqları özləri ölkəmizlə bağlı şər və böhtan kampaniyası təşkil edirlər.



*Almaniyalı deputat illərlə erməni lobbisinin təsiri altında olmaqla, onlardan maddi və mənəvi dəstək alıb*

### Xarici şəbəkə Bakıdakı alətlərindən imtina edir?

Xaricdəki məkirli dairələrin və onların baş bilənlərinin prosesin fəal iştirakçısı kimi çıxışı etmələri o fikri deməyə əsas verir ki, onlar ya Bakıdakı təmsilçilərindən imtina edir, ya da müxalif dağıdıcı ünsürləri fərsiz, bacarıqsız hesab edirlər. Özləri tezislərin icraçısı olmaqla Azərbaycana qarşı nəsə edəcəklərini düşünürlər. Ancaq anlamırlar Azərbaycan elə bir qüdrətə malik dövlətdir ki, onunla güc müstəvisindən danışmaq, eləcə də qarayaxma yolu ilə nəticə əldə etməyi düşünmək ağılsızlıqdır. Görünən isə ondan ibarətdir ki, ortada olan reallığı xarici anti-Azərbaycan qüvvələr dərk etmirlər. Yenə də Almaniyanın nasist partiyasının fəal təşkilatçılarından olan Bundenstaqın üzvü Frank Şveber vasitəsi ilə ölkəmizlə bağlı şər və böhtanlarını səsləndirirlər. Frank Şveber o məxluqdur ki, 44 günlük Vətən Müharibəsində Azərbaycanın Ermənistan üzərində hərbi, siyasi, diplomatik qələbə qazanmasını həzm etmək istəməyərək ölkəmizin AŞPA-da səsvermə hüququnun məhdudlaşdırılması təşəbbüsü ilə çıxış etmiş və Avropadakı qaranlıq dairələrin qaranlıq niyyətli deputatlarının dəstəyi ilə istəyinə nail olmuşdur. Absurd qərardan sonra Azərbaycan avropalı deputatları əsaslı və haqlı qərarı ilə cavab verdi. Belə ki, Azərbaycan AŞPA-nın qərəzli qərarının aradan qaldırılmayana qədər qurumun deputatlarının ölkəmizə girişinə qadağan edən qərar qəbul etmişdir. Məhz bu haqlı qərardan sonra Fransa və Almaniyanın üzdə olan, lakin hər məqamda üzləri qara olan rəsmi şəxsləri F.Şveberi daha açıq və qərəzli açıqlamalarla çıxış etməyə məcbur etdilər. Bu baxımdandır ki, göydəki ulduzlara belə hürən it kimi, F.Şveber də bütün günü Azərbaycana qarşı əsassız ittihamlarla çıxış edir. Gah deyir ki, Azərbaycanda "İnsan haqları" pozulur, "demokratiya yoxdur", bəzən də iddia edir ki, Azərbaycanda "siyasi məhbuslar var". Ümumiyyətlə son vaxtlar, yəni COP29 konfransının Azərbaycanda keçirilməsi ilə bağlı qərarın qəbul edilməsindən sonra Frank Şveber Azərbaycana qarşı qarayaxma kampaniyasının əsas hissəsini guya Azərbaycanda "siyasi məhbuslar"ın olması üzərində qurur və onların azad edilməsini istədiklərini bildirir. Ənənəvi Qərb şər və böhtanı olan bu cür sayıqlama o qədər də təəccüb doğurmur.

Çünki "siyasi məhbus" termini Qərb dairələrin leksikonunda siyasi dəyənək rolunu oynayır. Həmin dəyənəyi onlar müstəqil siyasət yürüdən ölkələrə qarşı yönəldir. Lakin onlar unudurlar ki, Azərbaycan ilə təzyiq dilində danışmaq heç bir nəticəyə gətirib çıxara bilməz. Digər tərəfdən Azərbaycanda siyasi məhbuslar yoxdur. İkincisi, Avropa dairələrinin özləri bilirmi "siyasi məhbus" kimlərə şamil olunur? Əgər separatçı, oğuru, quldurluq edən, qaçaqmalçılıqda ittiham edilən şəxs "siyasi məhbus" hesab edilirsə, o zaman Avropanın və ABŞ-ın həbsxanalarında çürüyən məhbusların az qala 85-90 faizi siyasi məhbusdur. F.Şveberin yanaşmasına istinad etsək, o zaman Avropa və ABŞ həmin şəxsləri azad etməlidir.

### İkili standartlar Avropanı məhv edəcək

Qərbin qaranlıq dairələrinin Azərbaycana qarşı qərəzli mövqeyinin nədən qaynaqlandığını yuxarıda qısa da olsa bir hissəsini qeyd etdim. Digər məqam isə ondan ibarətdir ki, Azərbaycan hüquq-mühafizə orqanlarının Avropanın qaranlıq dairələrinin əlinə işləyən Bakıdakı təmsilçilərini ifşa etməsi, onların kürkünə birə salıb. Xüsusilə də, F. Şveberində əməkdaşlıq etdiyi Bakıdakı təmsilçilər Abzas Media, Toplum TV və digərlərinin ifşası onları ciddi narahat etməyə başlayıb. Bu baxımdan da Azərbaycana qarşı qarayaxma kampaniyası aparılır, ünvanına şər və böhtanlar səsləndirilir. Halbuki, Ermənistanda insanlar siyasi mənsubiyyətinə görə təqib olunur, jurnalistlər yazdıqları yazılarına görə həbsxanalar alırlar, lakin Avropanın məkirli dairələri baş verənlərə lal və kordular. Xatırlatmaq lazımdır ki, 2019-cu ildə Ermənistan həbsxanasında müxalifyönlü jurnalist M.Yegiazaryan aclıq aksiya keçirərək ölmüşdür, 15 iyul 2022-ci il də müxalif siyasətçi Armen Qriqoryan elə məhkəmə zalında ölmüşdür. Paşinyandan öncə hakimiyyətdə olan şəxslərin böyük hissəsi həbsxanalara göndərilmişdir. Əgər baş verənləri görmək iqtidarındadırsa F.Şveber nədən Ermənistanın xalqlar həbsxanasına çevrilməsindən danışmır və ya AŞPA nəyə görə Paşinyan rejimini ittahamedici bəyanatla çıxış etmir? Cavabı aydındır. F. Şveber illərlə erməni lobbisinin təsiri altında olmaqla, Qarabağ ermənilərinin hüquqları barədə danışmışdır. Lakin o bir dəfə də olsun, Qarabağda qondarma rejim və işğalçı Ermənistan tərəfindən törədilmiş dağıntılar və Azərbaycanın mədəni irsinin dağıdılması, azərbaycanlıların ora qayıdış hüquqlarının 30 il ərzində tapdalanması barədə bir söz də deməmişdir. Bu fakt özlüyündə onun nə dərəcədə qərəzli və erməni lobbisinin maraqlarına xidmət edən şəxs olmasını göstərir. Məhz erməni lobbisinin maddi və mənəvi dəstəyi ilə F. Şveber Almaniyanın ictimai kanalı ARD-də Azərbaycan əleyhinə bədii filmin ("Am Abgrund") hazırlanmasında yaxından iştirak edib. F. Şveber, Okampo, bir sıra ABŞ konqresmenləri və senatorları, fransalı siyasətçilər və insan hüquqları müdafiəçilərinin ardıcıl, məqsədyönlü və sifarişli hücumlar təşkil ediblər. Bu gün də eyni qərəzli kampaniyanı davam etdirmələri ölkəmizdə keçirilməsi planlaşdırılan COP29-la bağlıdır. Bu mühüm tədbir ərəfəsində beynəlxalq ictimaiyyətin qarşısında Azərbaycanı növbəti dəfə qaralamağa çalışırlar və bütün bunların arxasına erməni lobbisi və anti-Azərbaycan qüvvələr dayanır. Lakin yuxarıda qeyd etdiyim kimi, bu cür qərəzli vasitələrlə Azərbaycanı haqq yolundan, ədalətli mövqeyində, demokratik inkişafından döndərmək mümkünsüzdür.

***İLHAM ƏLİYEV***

MÜNASİBƏT



# "İnformasiyanın idarə edilməsi müasir şəraitdə ciddi bir silaha çevrilib"

"Ümumiyyətlə, informasiyanın idarə edilməsi dezinformasiyalar və diffeyklərlə mübarizə bugün istənilən bir dövlətin siyasətinin mühüm istiqamətlərindən birini təşkil edir". Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi, "Bakı Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev deyib.

Aydın Quliyev sözlərinə belə davam edib: "Təsadüfi deyil ki, bu yaxınlarda Azərbaycan da Şuşada dezinformasiyalarla mübarizə ilə bağlı ayrıca beynəlxalq konfrans keçirdi. Hətta Avropa Birliyi ölkələrində və Avropa birliyinin rəhbərliyində dezinformasiyalarla mübarizə ilə bağlı ayrıca strategiya hazırlanır. Buna görə də yalan informasiyalarla mübarizə bugün dünya dövlətlərinin demək olar ki hamısının siyasətinin mühüm istiqamətinə çevrilib. Amma məsələ burasındadır ki, bəzi ölkələrin əlində informasiyaların idarə edilməsi təkcə öz mənafelərini həyata keçirmək, öz mənafelərini müdafiə etmək üsulu deyil, eyni zamanda bu statusdan çıxaraq başqa ölkələrə təsir göstərmək, onun daxilinə nüfuz etmək, başqa ölkələrin arasında münasibətləri dəyişdirmək, başqa ölkələrin beynəlxalq miqyasda manevr imkanlarına zərər toxundurmaq məqsədi daşıyır. Bu nöqteyi-nəzərdən informasiyanın idarə edilməsi həm onun hədəfi olan ölkələr üçün çox vacibdir, həm də bu siyasəti informasiyanın idarə edilməsi siyasətilə öz mənafelərini həyata keçirmək istəyən və başqalarının mənafelərinə ziyan vurmaq istəyən ölkələr üçün maraqlı bir siyasətdir.



Nəzərə alsaq ki, dünyanın bəzi ölkələri xüsusilə də Qərbin güclü dövlətləri hələ bugün də başqa ölkələrin daxili işlərinə müdaxilə etmək, onları ikili standart siyasətinin hədəfinə çevirmək, bu ölkələrdə özlərinin imperiya və hətta Fransa kimi ölkələrin timsalında öz müstəmləkəçilik maraqlarını həyata keçirmək istəyirlər. Belə şəraitdə onların tərəfindən informasiyanın idarə edilərək həyata keçirilməsi digər ölkələr üçün olduqca böyük təhlükədir. İnformasiyanın idarə edilməsi bir müstəvidə, bir şərt daxilində ölkələrin özünümüdafiə üsuludur, başqa bir çərçivədə, başqa bir müstəvi üzərində isə iddialı, ambisiyalı, başqa ölkələrin mənafelərini ayaq altına atmaq istəyən ölkələrin əlində bir növ həm digər ölkələrə qarşı mübarizə və o ölkələri sıxışdırmaq üsuludur. Buna görə də informasiyanın özü qədər onun idarə edilməsi də müasir şəraitdə ciddi bir silaha çevrilib.

O ölkələr ağıllı siyasət aparırlar ki, onlar həm öz informasiyalarını öz dövlətlərinin mənafelərinə uyğun şəkildə hazırlanma və yayım sisteminə malik olurlar, eyni zamanda özlərini başqa dövlətlərin informasiya təcavüzündən qorumaq və sığortalamaq üsullarını, sistemlərini yaradırlar. İndiki şəraitdə feyk informasiyalarla, diffeyklərlə, dezinformasiyalarla uğurlu mübarizənin təəssüf ki hələlik bundan üstün və səmərəli formatı yoxdur. Həm öz milli informasiya istehsal sistemini təkmilləşdirməlisən, həm də başqalarının sənə qarşı informasiya təcavüzünü neytrallaşdırmaq sisteminə malik olmalısan. Üçüncü bir yol yoxdur".

***Ayşən Vəli***

# “BRİCS yalnız müstəqil dövlətlərin ittifaqıdır və Azərbaycanın üzvlüyə müraciəti qəbul ediləcək”




**"BRİCS-də NATO və digər təşkilatlarda (AUKUS, QUAD) ABŞ-ın müttəfiqi olanlara yer yoxdur, çünki bu dövlətlər müstəqil xarici siyasət yeritmək imkanından məhrumdurlar"**

***Oktyabrda Kazanda BRİCS ölkələrinin sammiti keçiriləcək və görünür, bu assosiasiyaya üzv olmaq üçün Azərbaycan və Türkiyənin müraciətlərinə baxılacaq. Sürətlə Qərbə qaçan Ermənistanın indi də artıq BRİCS sammitində iştirak etmək qərarına gəldiyi barədə məlumatlar yayılıb. İqtisad elmləri doktoru, Sankt-Peterburq Dövlət Universitetinin professoru, rusiyalı politoloq Stanislav Tkaçenko Caliber.az-a müsahibəsində qarşıdan gələn sammit və BRİCS-in genişlənməsi perspektivləri barədə danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.***




**- Moskvanın BRİCS-in inkişafı ilə bağlı hansı planları var?**

- BRİCS-in müstəqil daxili və xarici siyasət aparmağa qadir olan tam suveren dövlətlərin maksimum sayına qədər genişləndirilməsi müasir Rusiya diplomatiyası üçün strateji prioritetdir. Moskva BRİCS-ə BMT-nin yaradıldığı funksiyaları yerinə yetirməkdən imtina edəcəyi halda, onun xarici siyasətinin “ehtiyat aerodromu” kimi baxır. Xatırladım ki, BMT fövqəldövlətlər (bir vaxtlar SSRİ və ABŞ, bu gün isə ABŞ, Çin və Rusiya) arasında sülhü təmin etmək və BMT Nizamnaməsi ilə münasibətləri tənzimləməklə yanaşı, müvafiq qaydada yaradılmış beynəlxalq təşkilatların bütöv bir şəbəkəsinə rəhbərlik etməyə çağırılır. Bunlara xüsusilə ÜTT, ÜST, BVF və Dünya Bankı daxildir. Və bu təşkilatların heç biri bu gün yaradılma məqsədi və fəaliyyəti Rusiyanın BMT büdcəsinə verdiyi töhfə ilə maliyyələşdirilən funksiyaları yerinə yetirmir.




Rusiyanın Kazan sammiti ilə bağlı planları və gözləntiləri Moskvanın 2024-cü ilin əvvəlində açıqladığı bir sıra rəsmi sənədlərdə qeyd olunub. Üzvlük meyarlarını müəyyən etməklə yanaşı, onlara şərti valyuta ehtiyatları hovuzu və Yeni İnkişaf Bankı da daxil olmaqla yaradılmış BRİCS institutlarının işinin uzunmüddətli gündəliyinin, habelə istifadə perspektivlərinin müzakirəsi daxildir. Həmçinin, assosiasiya daxilində rəqəmsal valyutaların yaradılması və iştirakçı ölkələr arasında ticarətdə hesablaşmaların de-dollarizasiyası məqsədlərinə nail olmaq.

Rusiyanın strateji məqsədi BRİCS-i dünyanın əksər dövlətlərini birləşdirən, ABŞ və müttəfiqlərinin sanksiyalarından, diplomatik addımlarından və digər düşmənçilik hərəkətlərindən qorunan bir təşkilata çevirməkdir.

**- Kazanda Azərbaycanın BRİCS-ə üzvlüklə bağlı müraciəti müzakirə olunacaq. Bakının müraciəti nə qədər tez təsdiqlənəcək?**

- Rusiya istərdi ki, xarici siyasət prioritetləri baxımından ona yaxın olan Belarus və ya Azərbaycan kimi dövlətlər bu payızda Tatarıstanın paytaxtı Kazanda keçiriləcək sammitdə BRİCS-in tamhüquqlu üzvü olsunlar. Ancaq hələlik hazırkı BRİCS üzvlərinin razılaşması qüvvədədir, ona əsasən, 2024-cü ildə Rusiyada keçiriləcək sammitdə BRİCS-ə üzvlük meyarları razılaşdırılacaq və yalnız bundan sonra bu meyarlar tətbiq olunacaq. Razılaşdırılmış




meyarlara uyğun olaraq BRİCS-in tamhüquqlu üzvü olmaq arzusunu ifadə edən təxminən 30 dövlətdən üzvlər seçiləcək. Mənim proqnozum odur ki, meyarlar tam olmasa da, qismən Kazanda razılaşdırılacaq, lakin BRICS-in genişlənməsi ilə bağlı qərar gələcəkdə, bəlkə də bu forumun 2025-ci ildə Braziliyada keçirilməsi planlaşdırılan növbəti sammitində veriləcək.

**- Ermənistan nümayəndə heyətinin sammitdə iştirakının planlaşdırılmasının səbəbi nədir? Razısınızmı ki, bu qərar İrəvanın qərbyönlü xəttinə tam uyğun gəlmir?**

- Ermənistanın Kazandakı BRİCS sammitində iştirakı bu dövlətin Aİİ üzvü olması ilə izah olunur. Rusiya Aİİ-nin ən böyük üzvü olaraq onun bütün tamhüquqlu üzvlərinin (hazırda Aİİ-yə 5 ölkə, o cümlədən Rusiya və Ermənistandan əlavə, Belarus, Qazaxıstan və Qırğızıstan daxildir) forumun iclasında iştirak etməsində maraqlıdır. BRICS+ formatında. Bu, Rusiyaya Aİİ lideri statusunu təsdiqləməyə imkan verəcək, həmçinin adları çəkilən 4 dövlətdən hər hansı birinin yaxın gələcəkdə BRİKS-in tamhüquqlu üzvü olması üçün əlverişli şərait yaradacaq.

Moskva ilə İrəvan arasında hazırkı münasibətlər bütün tarixinin ən kəskin böhranını yaşayır, ona görə də Ermənistanın baş nazirinin Kazana dəvəti formal səbəblərlə izah olunur və İrəvanın aqressiv anti-Rusiya siyasətini dayandırmağa təşviq etmək vasitəsi kimi çıxış etmir.

**- Yeri gəlmişkən, Ankara da BRİCS-ə üzv olmaq arzusunu açıqlayıb. Sizcə, Kazanda Türkiyənin müraciəti də dəstəklənəcəkmi?**

- Rusiyanın fikrincə, BRİCS-də NATO və digər təşkilatlarda (AUKUS, QUAD) ABŞ-ın müttəfiqi olan ölkələrə yer yoxdur, çünki bu dövlətlər müstəqil xarici siyasət yeritmək imkanından məhrumdurlar və öz suverenliklərinin bir hissəsindən imtina ediblər. Vaşinqton təhlükəsizlik zəmanəti və vaxtaşırı maliyyə yardımı müqabilində. Bu baxımdan Türkiyənin BRİCS-ə üzvlük üçün müraciət tarixi göstəricidir. Hazırkı şəraitdə Ankaranın foruma tamhüquqlu üzv olmaq şansı olduqca zəifdir. Amma Türkiyənin Vaşinqtondan müstəqilliyini nümayiş etdirmək imkanı var. Və əgər bu suverenlik sübutları inandırıcı olsa, o zaman Rusiyanın Türkiyənin müraciətini dəstəkləyəcəyinə şübhə yoxdur.

Ümumiyyətlə, Rusiyada Türkiyənin BRİCS-ə üzvlüyü mövzusunda iki qütb nöqtəsi var. Birinci baxış bucağı: Türkiyənin BRİCS-ə qəbulu NATO-nun ambisiyalarını xeyli azaldacaq. Başqa bir nöqteyi-nəzər ondan ibarətdir ki, Türkiyə üçün BRİCS-ə namizəd statusu oyundur və Ankaraya yalnız Brüssel və Vaşinqtonla sövdələşmə üçün lazımdır. Səudiyyə Ərəbistanı və Argentinanın yolunu tutmaq üçün- bu ölkələr də BRİCS-ə üzv olmaq istəyiblər, ərizələri təsdiqlənib, sonra ABŞ-dan müxtəlif bonuslar alıb və təşkilata üzvlükdən imtina ediblər.

BRİCS-ə qoşulma şansına gəlincə, yəqin ki, konsensus belə olacaq: Çin neytral olacaq, Hindistan buna qarşı çıxacaq, Rusiya isə böyük ehtimalla Türkiyənin müraciətini dəstəkləyəcək. Düşünürəm ki, çox güman ki, Türkiyə əvvəlcə hansısa xüsusi iştirakçı statusu alacaq, sonra isə BRİCS-i hansısa formada BRİCS+ formatına genişləndirməyə dəyərmi mövzusunda müzakirələr aparılacaq.

***Tərcümə - Elçin Bayramlı***

# Ləyaqəti olmayandan ləyaqət dərsi

## Avropa İttifaqının ikili standartlarına yeni baxış



***Avropa İttifaqı Azərbaycana qarşı ikili standartlarını davam etdirir, Avropa Şurasının İşgəncənin və Qeyri-insani yaxud Ləyaqəti Alçaldan Rəftar və ya Cəzanın Qarşısının Alınması üzrə Komitəsinin (İQAK) ictimai bəyanatına istinad edərək Azərbaycanla bağlı qərəzli və ədalətsiz çıxışlar edir. Səbəb nədir və yaxud bu, nəyin bəhanəsidir? İlk vaxtlar çoxumuz avam tərəfimizə salıb düşünürdük ki, yəqin Avropa Azərbaycana Qərb dəyərlərini gətirməklə, bizə öz standartlarını tətbiq etməklə ölkəmizi Avropa ailəsinin üzvü etmək istəyir. Daha çox özünü müxalifətçi sayan kəsim uzaqdan göstərilən yem "primanka"larına inanıb ağzını suladırdı. Hətta buna görə öz dövlətinə asi olanlar da tapılırdı və bu gün də azdığı yoldan geri dönmək istəməyənlər var. Sonradan bəlli oldu ki...***



© Reuters/H. Hansch

RAKURS

Gördük ki, Avropa bir hadisəyə, yaxud bir görüntüyə fərqli reaksiyalar verir. Məsələn Azərbaycanda qanunsuz aksiya keçirilir və buna görə asayiş keşikçiləri insanları qanuna dəvət edərək onları başqalarının haqqını, hüququnu tapdalamamağa çağırır. Anlamayanlara qarşı bəzən güc tətbiqi də qaçılmaz olur. İki gün keçmir Avropanın həşəmətli "ekspert"ləri müxtlif "silahlar"la, əllərinin altında olan üsullarla düşürlər üstümüzə, bəyanatın biri 3 qəpiyə. Azərbaycanı dünyada biabır etməyə çalışırlar, nəticədə də bu anlaşılır ki, guya avropalılar bizə hüquqdan, insan haqlarından, söz və mətbuat azadlığından verdiyi dərsləri biz azərbaycanlılar mənimsəyə bilmirik, yaxud istəmirik. Amma Ermənistanda bir işarə ilə hər şey anlaşılan olur. Nə qədər misallar, faktlar, arqumentlər gətirirsən, eşidilmir, avropalılar özlərini karlığa qoyur, başqa ölkələrdə baş verənlərlə eyniləşmə aparanda isə yenə qərəz və ədalətsiz mövqe ilə üzləşməli oluruq.

Amerikada polisin lüzumsuz, o cümlədən qərəzli əmrinə tabe olmayan vətəndaşa qarşı nələrin edildiyi barədə yüzlərlə videogörüntülərə baxmısınız. Belə insidentlərdə vətəndaşlar arasında ölənlər də az deyil. İnsanları "atdöşü" edlməsi də bizə yad səhnələr deyil. Fransada "sarı jiletlilər"in aqibəti bütün Avropa İttifaqı üçün bir dərs olmalıdır, avropalılar başqalarını ittiham etməzdən əvvəl Fransa polisinin vəhşiliklərini yada salmalıdırlar. Bəs necə, özündə problemlər olaola, başqasında necə problem axtara bilərsən, öz gözündə tiri görməzdən gələrək başqasının gözündə necə tük axtara bilərsən. Avropa Şurası Azərbaycanda ləyaqətin alçaldılması barədə faktlar axtarır, onda belə çıxır ki, polis atının dırnaqları altında əzilən fransız fermerinin ləyaqəti yoxdur, olsaydı birinci elə oradan başlayardılar. Ya da "sarı jiletli" mədənçilərin hüquqları ağ fransızlarınkı qədər deyil.

Uzağa getməyək, Azərbaycan da, Ermənistan və digər possovet respublikaları da SSRİ adlı dövlətin ideoloji çətiri altında yaşamışıq, dərdimiz də, sərimiz də bir olub. Yəni bütün "qardaş" respublikaların həyat səviyyəsi bir-birinə bənzər olub, bir az aşağı, bir az yuxarı. Amma Avropanın 15-liyə yanaşması fərqlidir. Ermənistanda prezidentliyə namizəd güllələnir, o birisinin başını yarırlar, digərinə qarşı məhdudlaşdırıcı üsullar tətbiq edirlər, başqa birisini "dama" basırlar, Avropanın tükü də tərpənmir. Azərbaycanda keçirilən seçkilərdən əvvəl və sonra isə Avropanın qərəz yağışında çimirik. MSK sərdi çıxış edir ki, seçkilərin nəticələri barədə yekun qərar 20 gündən sonra veriləcək. ATƏT-in Demokratik İslahatlar və İnsan Haqları Bürosu isə hələ Avropada olarkən hazırladıqları hesabatı seçki məntəqələri bağlanar-bağlanmaz açıqlamasına nə ad vermək olar? Həm də həqiqəti əks etdirməyən, qərəzli hesabat.

Avropa ölkələrində miqrantlara, daha doğrusu "gəlmələrə" qarşı münasibət yaxşı deyil, acınacaqlıdır, daha dəqiq desək dəhşətlidir. Deyənlər tapılar ki, miqrantın Avropada nə işi var ki, ona qarşı aşağılayıcı, rüsvayçı münasibətlər olsun. Amma nəzərə almaq lazımdır ki, həmin şəxsləri miqrant kimi evindən-eşiyindən edən, Avropada bir tikə çörəyə möhtac qoyan "qoca qitə"nin müstəmləkə ölkələridir.

Miqrant qalmaqalı böyüyür

Qanunsuz miqrantlar növbəti dəfə Şengen ölkələri arasında qızğın mübahisə obyektinə çevrilib. Bütün qeyri-qanuni mühacirləri birbaşa avtobuslarla Brüsselə daşımaqla hədələyən Macarıstanın ardınca Almaniya hakimiyyəti "çağırılmamış qonaqlar"la döyüşə başlayıb. Almaniya bu həftə bütün sərhədi boyunca yoxlamalar tətbiq edəcəyini açıqlayıb, bu addım qonşu ölkələr tərəfindən dərhal tənqid edilib. Ekspertlər isə istisna etmirlər ki, almanların daxili siyasi mülahizələrdən irəli gələn hərəkətləri domino effektinə gətirib çıxaracaq və digər Şengen ölkələrini razılaşdırılmamış sərhəd yoxlamaları tətbiq etməyə sövq edəcək.

Macarıstan heç vaxt Aİ-də sığınacaq axtaranlara isti münasibəti ilə tanınmayıb və miqrantların özlərinin bu ölkədə məskunlaşmaq həvəsində olduqlarını söyləmək kobud şişirtmə olardı. Beləliklə, son vaxtlar Macarıstan sərhədlərinə heç bir miqrant axını baş verməyib. Bununla belə, keçən həftənin sonunda Budapeşt qeyri-qanuni miqrantlara Macarıstandan Belçika paytaxtına "birtərəfli bilet" ödəməyə başlayacağını bildirib. Dövlət katibi Bence Retvary ötən cümə günü keçirdiyi mətbuat konfransında ictimaiyyəti Belçikaya "könüllü" və "pulsuz" daşınması üçün avtobuslarla tanış edərək, "Brüssel qeyri-qanuni miqrantlar istəyirsə, Brüssel onları ala bilər" deyib.

Bu, Belçika hakimiyyətinin və Avropa Komissiyasının qəzəbli iradına səbəb olub. Sonuncunun adını açıqlamayan nümayəndəsi çərşənbə axşamı bildirib ki, Budapeştin hərəkətləri "Aİ qanunlarının, həmçinin səmimi və sadiq əməkdaşlıq prinsipinin, eləcə də qarşılıqlı etimadın açıq şəkildə pozulması"dır və həmçinin "Şengenin təhlükəsizliyinə xələl gətirəcək".

Bununla belə, Macarıstandan qeyri-qanuni mühacir axınının faktiki olaraq Belçikaya axacağı ilə bağlı ciddi narahatlıqlar yox idi, çünki Budapeştlə bağlı bu, iyun ayında Aİ məhkəməsinin qərarına cavab olaraq daha çox teatral bir jest idi. Daha sonra məhkəmə Macarıstan hakimiyyətini sığınacaq hüququna ciddi məhdudiyyətlər qoyduğuna görə "Aİ qanunlarını görünməmiş və son dərəcə ciddi şəkildə pozmaqda" ittiham edib və ölkəni birdəfəlik 200 milyon avro və hər gün üçün 1 milyon avro cərimə kəsib. Bunun fonunda bir çoxları qeyri-qanuni mühacirlərin AB-nin mərkəzinə avtobuslarla daşınması ideyasının hökmü "qeyri-qanuni və qəbuledilməz" adlandıran baş nazir Viktor Orbanın yenə də bu məsələdə oynamaq cəhdindən başqa bir şey olmadığı qənaətinə gəlib.

Lakin Almaniyanın qeyri-qanuni immiqrantlarla mübarizə üçün yeni sərhəd nəzarəti tətbiq etmək qərarı Aİ-də daha ciddi narahatlıqlar yaradıb. Daxili işlər naziri Nensi Feser bu həftə Almaniyanın yaxın vaxtlarda bütün doqquz qonşu ölkədən səyahət edənləri yoxlamağa başlayacağını söyləyib. Əvvəllər bu cür yoxlamalar bəzən Polşa, Avstriya, Çexiya və İsveçrə ilə sərhədlərdə aparılırdı ki, bu da ölkənin Daxili İşlər Nazirliyinin məlumatına görə, sənədləri etibarsız olan 30 minə yaxın insana icazə verirdi. İndi Almaniya sərhədçiləri Fransa, Lüksemburq, Hollandiya, Belçika və Danimarkadan gələn miqrantları Almaniyada sığınacaq istəmək hüququnun olub-olmadığını qiymətləndirmək üçün beş həftəyə qədər həbs hüququna malik olacaqlar.

Bu tədbir, kansler Olaf Şolzun "hamımıza qarşı terror" adlandırdığı avqust ayında Solingen şəhərində suriyalının yüksək profilli bıçaqlı hücumundan sonra Berlin tərəfindən görülən bir sıra sərt immiqrasiya tədbirlərinin sonuncusudur. Bundan əvvəl alman hakimiyyət orqanları ölkədən deportasiyanı sürətləndirmək və bəzi sığınacaq axtaran şəxslərə verilən güzəştləri azaltmaq planını açıqlayıb, həmçinin Almaniyada cinayət törətməkdə təqsirli bilinən 28 Əfqanıstan vətəndaşını deportasiya edib.



Berlinin Avropada Şengen azad hərəkət zonasının fəaliyyətinə zidd olaraq özünü qonşularından təcrid etmək qərarı dərhal çoxlu tənqidlərə səbəb olub. Yeganə istisna Viktor Orban idi, o, sentyabrın 10-da axşam saatlarında X sosial şəbəkəsində istehzasız olaraq yazmışdı: "Almaniya qeyri-qanuni miqrasiyanın qarşısını almaq üçün sərt sərhəd nəzarəti tətbiq etmək qərarına gəlib. Kansler Şolz, kluba xoş gəlmisiniz".

Bu arada Avstriya kansleri Karl Nehammer ORF milli televiziyasına deyib ki, əgər Berlin daha çox immiqrantı ortaq sərhədlərindən geri göndərmək üçün tədbirlər görsə, Vyana da eyni şeyi edəcək və daha çox insanı Balkanlara və şərqə göndərəcək. Qonşu Polşanın baş naziri Donald Tusk isə Almaniyanın qərarını qəbuledilməz adlandırıb, çünki bu, onun fikrincə, "Şengen sazişinin faktiki olaraq geniş miqyasda dayandırılmasına" gətirib çıxaracaq. Tusk hökumətinin digər təsirə məruz qalan ölkələrlə məsələ ilə bağlı təcili məsləhətləşmələr aparmaq niyyətini açıqlayıb. "Şübhə etmirəm ki, Almaniyadakı daxili siyasi vəziyyət getdikcə daha sərt addımlar atmağa sövq edir", – Polşanın baş naziri nəhayət əlavə edib.

Həqiqətən də, Şolz hökuməti tərəfindən miqrasiya siyasətinin sərtləşdirilməsi, Türingiya və Saksoniyadakı son seçkilərin nəticələri ilə tam şəkildə nümayiş etdirilən ifrat sağçı anti-immiqrant Almaniya üçün Alternativ partiyasının populyarlığının görünməmiş artımı fonunda baş verib. Bununla belə, bir çox alman politoloqlarının xəbərdarlıq etdiyi kimi, hakim koalisiyadakı tərəfdaşların miqrasiya məsələlərində ifrat sağçıların ənənəvi meydanında oynamaq cəhdi vəziyyətin uzunmüddətli korreksiyasını təmin etməyəcək və əksinə, hətta ola bilər.

Üstəlik, Almaniyanın qeyri-qanuni mühacirlərə qarşı hazırkı sərtliyi, şübhəsiz ki, Avropa birliyinə və vahid Avropanın əsas nailiyyətlərindən birinə - maneəsiz hərəkət hüququna ən yaxşı təsir göstərməyəcək. "Bu, çox güman ki, Polşa, Macarıstan və Çexiya kimi miqrasiyanı dəstəkləməyən digər Aİ üzv ölkələri üçün presedent yarada bilər ki, bu da onlara bir növ təhlükəsizlik təhdidini iddia etməyə imkan verir", - Avropa Şurasının miqrasiya üzrə eksperti, xarici əlaqələr üzrə Mireya Faro Sarrats bildirib. Bu addım zəncirvari reaksiyaya səbəb ola bilər və koalisiya tərəfdaşlarının anti-immiqrasiya platformasında seçildiyi Fransa və ya Hollandiya kimi ölkələr onlardan nümunə götürəcəklər.

**V.VƏLİYEV**






# Uşaqlar neçə yaşdan dil öyrənməyə başlamalıdır?

***Uşaqlarınıza erkən yaşda xarici dil anlayışını tanıtmaq onların gələcəyinə edə biləcəyiniz ən böyük investisiyalardan biridir. Dünya dillərindən ən az birini bilən və buna erkən yaşda başlayan fərdlərin, xüsusən də iş həyatında başlanğıc olduğu bir həqiqətdir.***



Bəs, uşaqlar xarici dili neçə yaşından öyrənməyə başlamalıdır?

SİA mövzu ilə bağlı araşdırma aparıb.

ARAŞDIRMA

### Xarici dil öyrənməyə necə yaşdan başlamaq lazımdır?

Araşdırmalar göstərir ki, 5-7 yaş aralığı yeni və xarici dil öyrənmək üçün ideal yaşdır. Təbii ki, bu yaş şkalası uşağınızın öyrənmə qabiliyyətindən asılı olaraq dəyişə bilər. Çox tez və ya gec öyrənməyə başlasa problem deyil, önəmli olan dildən möhkəm yapışmaqdır.

### Dil öyrənmək neçə yaşdan sonra çətinləşir?

Təbii ki, bunun üçün dəqiq yaş verilə bilməz, çünki hamımızın əzbərlədiyi kimi öyrənmək üçün heç bir yaş məhdudiyyəti yoxdur (Öyrənmənin yaşı yoxdur). Ancaq araşdırmalar göstərir ki, 17-18 yaşdan sonra işlər bir az çətinləşə bilər. Amma dil hər yaşda öyrənilə bilər.

### Erkən yaşda xarici dil təhsili necə olmalıdır?

Təbii ki, hər bir ailə övladının xarici dil öyrənməsini istəyəcək və bu istiqamətdə onlara dəstək olmaq üçün bütün imkanlarından istifadə edəcək. Ancaq burada vacib faktlardan biri də uşağın dil öyrənməyə həvəsli olmasıdır. Bu vəziyyət əksər valideynlər tərəfindən nəzərdən qaçırıla bilər və uşağa xarici dil öyrənmək üçün təzyiq tətbiq oluna bilər.

İstər xarici dildə, istərsə də digər təhsildə nəzərə alınacaq ilk məqam uşağın psixologiyası olmalıdır. Zövqlə öyrənmək və öyrənərkən xoşbəxt olmaq çox daha uğurlu olacağınızın göstəricisidir. Bəli, dil öyrənmək övladınıza həyatda bir başlanğıc verə bilər, lakin onun xoşbəxtliyi həmişə birinci yerdə olmalıdır. Məsələn, onun dil qabiliyyəti olmaya bilər, amma riyaziyyatda yaşıdlarından çox fərqlənə bilər. Hansı sahədə yaxşı olsa da, dəstək almaq onun gələcək uğurunun ən mühüm açarlarından biri olacaq.

### Uşaq dil inkişafı üçün nə etməlidir?

Bu vəziyyət də uşağın maraqlarına uyğun formalaşdırıla bilər. Məsələn, kimsə musiqi ilə çox yaxşı məşğuldursa, xarici musiqiyə qulaq asa bilər və ya oxumağa həvəsi varsa, ingiliscə kitablarla dil inkişafına dəstək ola bilər.

### Maraqlarını kəşf edin

Körpəlik dövründə başlayan inkişaf prosesi uşağınızın xarakteri, maraqları və zövqləri bədəni kimi sürətli dəyişmə prosesindən keçir. İlk növbədə, bu yeni dövrə diqqət yetirin. Uşağınız ən çox nədən zövq alır? Filmlərə baxır? Kitab oxuyur? Musiqi dinləyir?

### Onu kiçik sözlərlə tanış edin

Məsələn, siz ailə olaraq masa arxasındasınız və uşağınızdan duz verməsini xahiş edirsiniz... Bunu ingilis dilində və onun diqqətini cəlb edəcək şəkildə tələffüz etməyə çalışın. Uşaqların beyni süngər kimidir və hər şeyi qəbul edə bilir. Yenicə tanış olduğu dünyada kəşf etdiyi hər şey onu həyəcanlandıracaq. Bunun obyekt olmasına ehtiyac yoxdur. Hətta bir söz və ya ifadə onların diqqətini cəlb edəcək. Onlar bu yeni bilikləri dostlarına ötürməyə həvəsli olacaqlar. Ona kiçik- kiçik ingiliscə sözlər aşılayın. Məsələn, sizdən süd istədi. Süd verərkən xarici dildəki qarşılığını da söyləyin. Əmin olun ki, o kiçik sözlər gələcəyin böyük cümlələri olacaq!

### Xarici uşaq kanallarını açın

Hər bir uşaq cizgi filmlərinə, animasiyalara və cizgi film qəhrəmanlarına maraq göstərir. Xarici kanallarda sevimli cizgi filmi qəhrəmanının hekayələrinə qulaq asın. Bəli, başa düşməyəcək, amma sözlərin və diksiyanın qulağında olması dil təhsilində mühüm addımdır.

Ən effektiv öyrənmə aləti: Oyun

Oyun oynamaqla siz təkcə bacarıqların inkişafına deyil, həm də dil təhsilinə töhfə verə bilərsiniz. Ailə olaraq oynadığınız oyunlar uşağınızla keyfiyyətli vaxt keçirməyinizə imkan verəcək və onun dil inkişafına dəstək olacaq. Xüsusilə ingilis dilində sual-cavab şəklində oynanan oyunlar çox daha yaddaqalan olacaq.

### Texnologiyanı işə salın

Yeni nəsil "doğuşdan kodlaşdırılıb" desək, yanılmarıq. Onlar hələ körpəlik dövründə çox şeyə yiyələnirlər. Onların telefon və planşet kimi cihazlardan necə tez və ağıllı şəkildə istifadə etmələrinə hər gün daha çox təəccüblənirik. Texnologiyaya maraq göstərən Z nəslinin sevimli üzvlərini bu imkanlardan məhrum etmək mümkün deyil. Xarici müəllimlərdən canlı şəkildə xarici dili öyrənmək son illərdə çox populyarlaşıb. Yaxşı bir dil təhsili proqramı axtarıb sizə ən uyğun olan yerdən dəstək ala bilərsiniz.

Ardı Səh. 11

# Uşaqlar neçə yaşdan dil öyrənməyə başlamalıdır?





Əvvəli-Səh-10

**Təhsil eksperti Kamran Əsədov:** "Uşaqlar dil öyrənməyə mümkün qədər erkən yaşdan başlamalıdırlar. Tədqiqatlar göstərir ki, erkən yaşda dil öyrənmək həm ana dilinin, həm də əlavə dillərin öyrənilməsi prosesində böyük üstünlüklər yaradır. Burada yaş dövrlərini nəzərdən keçirməklə dil öyrənmənin müxtəlif mərhələlərini izah edək:

**1. 0-3 yaş (Erkən uşaqlıq dövrü)**

Bu yaş dövründə uşaqlar dili passiv olaraq dinləmə yolu ilə öyrənirlər. Beyin bu dövrdə yüksək dərəcədə plastikdir, bu isə uşaqlara dilin əsas strukturunu və səslərini mənimsəmək imkanı verir. Bu mərhələdə uşaqlar:

Sözlərə, səslərə və intonasiyaya həssasdırlar.

Müxtəlif dilləri fərqləndirmək bacarığına malikdirlər.

Danışanları və dili təqlid edərək ilkin kommunikasiya bacarıqları inkişaf edir.

### Dil öyrənmə üçün tövsiyələr:

Bu yaşda uşaqlara bir neçə dil təqdim etmək faydalıdır. Onlar hər iki (və ya daha çox) dili mənimsəməkdə çətinlik çəkmirlər.

Uşaqlarla aktiv şəkildə danışmaq, onlara mahnılar oxumaq, nağıllar danışmaq dil inkişafına böyük təkan verir.

### 2. 3-7 yaş (Məktəbəqədər dövr)

Bu yaş dövrü uşaqların danışıq bacarıqlarının aktiv şəkildə inkişaf etdiyi mərhələdir. Beyin dil qaydalarını və qrammatikanı mənimsəmək üçün hələ də çox açıqdır. Tədqiqatlar göstərir ki, bu yaşda dil öyrənən uşaqlar:

Ana dillərindən fərqli dillərin fonetik sistemlərini tez mənimsəyirlər.

Xarici dilləri öyrənmək üçün yaxşı yaddaş və qavrayış bacarıqlarına malikdirlər.

Çoxdilli mühitdə olan uşaqlar tez bir zamanda müxtəlif dillər arasında keçid edə bilirlər.

### Dil öyrənmə üçün tövsiyələr:

Uşaqlar üçün əyləncəli və interaktiv dil öyrənmə proqramları yaratmaq lazımdır. Oyunlar, şəkillər və mahnılar vasitəsilə dil öyrənmə prosesi daha asan və effektiv ola bilər.

Uşaqları çoxdilli mühitdə böyütmək, dil öyrənməni təbii proses halına gətirə bilər.

3. 7-12 yaş (İbtidai məktəb dövrü)

Bu yaş dövrü uşaqların dilin strukturunu və qrammatikasını daha dərindən mənimsədikləri mərhələdir. Uşaqlar dil qaydalarını öyrənməyə başlayırlar və yaddaşları daha güclüdür. Bu dövrdə öyrəndikləri dillər onların təhsil və karyera imkanları üçün böyük fayda gətirə bilər.

### Dil öyrənmə üçün tövsiyələr:

Xarici dilin aktiv tədrisi bu yaşda başlanmalı və müntəzəm olaraq davam etdirilməlidir.

Uşaqlar üçün danışıq klubları, film və kitablar kimi əyləncəli vasitələrlə dil öyrənmək dəstək olmalıdır.

4. 12 yaşdan sonra (Erkən yeniyetməlik dövrü)

Bu mərhələdə uşaqların dil öyrənmə bacarıqları hələ də yüksək olsa da, artıq dil öyrənmə qabiliyyəti erkən yaşla müqayisədə azalmış olur. Lakin bu yaşda olan uşaqlar qrammatika, yazı və danışıq qaydalarını daha yaxşı anlayır və tətbiq edir.

### Dil öyrənmə üçün tövsiyələr:

Dilin akademik aspektlərinə daha çox diqqət yetirmək, qrammatika və yazı bacarıqlarını inkişaf etdirmək faydalıdır.

Xarici dillə daha çox təmas, xarici mühitdə dil öyrənmə, filmlər izləmək, dil düşərgələrinə qoşulmaq bu yaşdakı uşaqlar üçün faydalıdır.

### Beynəlxalq tədqiqatlar nə deyir?

Tədqiqatlar göstərir ki, erkən yaşda ikinci və ya üçüncü dil öyrənən uşaqların beyinləri dilləri sanki ana dili kimi emal edir. Bu yaşlarda dil öyrənən uşaqlar daha təmiz tələffüzə sahib olur, müxtəlif dillərin strukturunu və fonetik qaydalarını daha yaxşı mənimsəyirlər.

Həmçinin, erkən yaşda dil öyrənən uşaqların yaddaşı və qavrayışı daha güclü olur, bu da onların təhsil sahəsində üstünlüklərini artırır.

Beləliklə, ən optimal dövr dil öyrənməyə erkən yaşdan başlamaqdır – 0-7 yaş arasında dil öyrənmə təbii proses kimi baş verir. Lakin 12 yaşdan sonra da dil öyrənmək mümkündür və effektiv ola bilər. Dil öyrənmək üçün müntəzəm məşq, müxtəlif resurslardan istifadə və motivasiya çox önəmlidir".

### Uşaqlara ingilis dilini öyrətmək üçün ən yaxşı proqramlar

Uşaqlara ingilis dilini öyrədən ən yaxşı proqramlar uşağın dil bacarıqlarının formalaşmasında çox mühüm rol oynayır. Gəlin dil öyrənmə proqramlarının maraqlı dünyasına və onların necə fərq yarada biləcəyinə baxaq.

### Uşaqlara ingilis dilini öyrədən proqramların üstünlükləri

**Koqnitiv inkişaf**

Dil öyrənmə proqramları uşaqlarda koqnitiv funksiyaları stimullaşdırır, yaddaşı, problem həll etmə bacarıqlarını və yaradıcılığı artırır. Onlar interaktiv dərslərdə iştirak etdikcə beyinləri aktiv şəkildə yeni məlumatları emal edir və mənimsəyir.



### Təkmilləşdirilmiş akademik performans

Tədqiqatlar göstərir ki, erkən yaşda dil öyrənməyə məruz qalan uşaqlar daha yaxşı akademik performans göstərirlər. Bu təcrübələr dilin başa düşülməsinə və ümumi akademik müvəffəqiyyətə kömək edən güclü təməl yaradır.

### İnteraktiv məzmun

Ən yaxşı dil öyrənmə proqramları interaktiv məzmun təmin etməklə öyrənmə prosesini əyləncəli edir. Oyunlar, testlər və çağırışlar vasitəsilə uşaqlar ingilis dilini çətinlik çəkmədən öyrənir və təhsili əyləncəli macəraya çevirir.

### ABC Kids

Canlı interfeysi və yaşa uyğun məzmunu ilə tanınan ABC Kids, maraqlı oyunlar və fəaliyyətlər vasitəsilə ingilis dilini təqdim edir. Tətbiqin audio-vizual yanaşması uşaqları öyrənərkən əyləndirir.

ABC Kids hərf tanıma və əsas lüğəti təkmilləşdirmək üçün interaktiv oyunlar təklif edən əla proqramdır.

### Duolingo

Uşaqlar üçün Duolingo məşhur dil öyrənmə platformasını gənc istifadəçilər üçün uyğunlaşdırır. O, fərdiləşdirilmiş dərslər və əyləncəli interfeys ilə dil öyrənməni uşaqların unikal ehtiyaclarına uyğunlaşdırır.

Duolingo fərdiləşdirilmiş dil dərsləri və əyləncəli interfeys ilə uşaqlar üçün ingilis dilini öyrənməyi dəstəkləyən proqramdır.

### FluentU

Uşaqlar üçün FluentU real dünya videoları vasitəsilə immersiv öyrənmə təcrübəsi təklif edir. Bu təcrübə uşaqları orijinal dil istifadəsinə təqdim etməklə dinləmə və anlama bacarıqlarını təkmilləşdirir.

### Eggbun education

Eggbun Education danışıq təcrübəsi təklif edən dil öyrənmə proqramıdır. Audio ifadələrlə uşaqlar ingiliscə danışıq bacarıqlarını təkmilləşdirə bilərlər.

### Linqokids

Lingokids, oyunlar və mahnılar tərəfindən dəstəklənən interaktiv dərsləri ehtiva edən bir proqramdır. O, tələbələrə əsas dil bacarıqlarını təkmilləşdirmək üçün əyləncəli mühit təklif edir.

### PBS kids

PBS Kids uşaqları cəlb edən əyləncəli məzmunu ilə tanınır. O, dil öyrənməyi dəstəkləyən interaktiv oyunlar və hekayələri ehtiva edir.

### ABC mouse

ABCmouse geniş çeşiddə təhsil məzmunu təklif edən və dil öyrənməsini dəstəkləyən proqramdır. Hekayələr, mahnılar və interaktiv fəaliyyətlər daxildir.

### Memrise

Memrise vizual yaddaş üsullarından istifadə edərək lüğəti artıran dil öyrənmə proqramıdır. Uşaqlar oyunlarla əylənərkən ingiliscə sözləri öyrənə bilərlər.

### Super Simple Songs

Super Simple Songs əyləncəli mahnılar vasitəsilə dil öyrənməyi təşviq edən proqramdır. Ritm və melodiya dil öyrənməni dəstəkləyir.

### Busuu

Uşaqlar üçün Busuu dil bacarıqlarını təkmilləşdirmək üçün interaktiv oyunlar və fəaliyyətlər təklif edən proqramdır. Danışıq, yazı və dinləmə bacarıqlarını əhatə edir.

Bu proqramlar uşaqlara ingilis dilini əyləncəli şəkildə öyrənmək imkanı verir və onların dil inkişafını dəstəkləyir.

***Ayşən Vəli***

# Musiqi sənətimizin zirvəsi — Arif Məlikov



***Bir ömrün məktəbini zəngin edən, ona naxış salan sənətə olan ilahi sevgi, əməllər, istedad, bacarıq və zəhmətdir. Bu ömür paylandıqca insanın əfsanəyə çevrilən nurlu əməlləri dünyaya işıq saçır, onu rövnəqləndirir. Bir tarix yazan ömürdə neçə-neçə illərin izləri var. Azərbaycan xalq artisti, professor, Azərbaycan SSR Dövlət mükafatı laureatı, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Avrasiya Akademiyasının qurucu üzvlərindən biri, dünyaşöhrəli bəstəkar Arif Məlikov kimi. Yaşadığı ömür yolunun izləri yaradıcılığına həkk olunub. Hər bəstəsində bir ömür canlanır. Dünyanın istənilən nöqtəsinin zövqlü musiqisevəri Arif Məlikov yaradıcılığına valeh olur.***

Arif Məlikov elə bir bəstəkardır ki, parlaq istedadı və özünəməxsusluğu ilə sərhəd tanımadan əsərləri dünyanı dolaşmışdır. Əsərlərində milli musiqi ənənələrini yaşadaraq mütərəqqi təfəkkürə malik yaradıcılığının əks etdirmişdir. Klassika ilə yeni düşüncənin vəhdətində möhtəşəm musiqi əsərlərini yaratmağa müvəffəq olmuşdur. Dolğun məzmun, obrazların dərin emosional-psixoloji ifadəsi onun yaradıcılığının səciyyəvi cəhətləridir.

### Dünya şöhrəti gətirən "Məhəbbət Əfsanəsi" baleti

Cismən aramızda olmasa da ruhən qəlblərdə sənət tariximizdə yaşayan Arif Məlikovun 13 sentyabr doğum günüdür. Tərcümeyi - halında qeyd olunduğu kimi, 1933-cü ildə Bakı şəhərində anadan olan sənətkar 1960-ci ildə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasını Qara Qarayevin bəstəkarlıq sinfi üzrə bitirmişdir. Həmin ildən orada dərs deməyə başlamış, ömrünün sonuna kimi bu təhsil ocağında professor və bəstəkarlıq kafedrasının müdiri kimi çalışmışdır. Onun qısa bir zamanda şöhrət tapmasında görkəmli türk şairi Nazim Hikmətin librettosu əsasında yazdığı ilk böyük əsəri "Məhəbbət Əfsanəsi" baleti olmuşdur. Gənc yaşlarında - 1961-ci ildə Leninqrad akademik opera və balet teatrının səhnəsindəki ilk tamaşadan dərhal sonra Arif Məlikov şöhrətləndi. Tanınmış bəstəkar D.Şostakoviç yazırdı:"Arif Məlikov istedadlı bəstəkardır, onun musiqisi əsl peşəkar musiqidir. Partituranın dərin musiqi dramaturgiyası, onun daxili inkşafı, qəhrəmanların musiqi səciyyələrinin dəqiqliyi və ifadəliyi, orkestrovkada nadir ustalıq, onun xüsusi rəngarəngliyi, çoxlu tapıntılar bu gözəl musiqi əsərini böyük maraqla dinləməyi məcbur edir".

Bəstəkarın sonrakı yaradıcılıq uğurlarından biri özbək yazıçısı Ş.Rəşidovun "İki qəlbin kitabı" əsəri əsasında yaratdığı "İki qəlbin poeması" baleti olmuşdur. Rəqqasə Komde və müğənni Modan haqqındakı qədim Şərq əfsanəsi baletdə əsl fəlsəfi ümumiləşdirmə zirvələrinə qaldırılaraq sənətin əbədiliyinin, qüdrətinin rəmzinə çevrilmişdir.

Bəstəkarın musiqi mədəniyyətimizin çoxəsrlik tarixə malik bünövrəsi zəminində və müasir kompozisiya texnikasını mükəmməl mənimsəyib yüksək professionallıqla yaratdığı simfoniya, balet, operetta, kantata, vokal, kamera və instrumental əsərlər misilsiz sənət nümunələri olaraq Azərbaycan musiqi xəzinəsinin qiymətli inciləri sırasında özünə həmişəlik yer tutmuşdur. Onun kino və dram tamaşalarına yazdığı musiqi, eləcə də romans və mahnıları məşhur sənətkarların ifasında səslənərək, geniş populyarlıq qazanmışdır. Arif Məlikovun bəşəri idealları özündə dolğun əks etdirən əsərləri ölkəmizin hüdudlarından kənarda bu gün də uğurla səsləndirilməkdədir. Arif Məlikovun əsərləri dünyanın bir çox ölkələrində - Rusiya, ABŞ, Böyük Britaniya, Fransa, Yaponiya, Türkiyə, Braziliya, Avstriya, Norveç, Finlandiya, İtaliya, Misir, Tailand, Yuqoslaviya, Bolqarıstan, Ruminya, Macarıstan, Çexiya, Slovakiya, Polşa, Almaniya, Özbəkistan, Qazaxıstan, Moldova, Ukrayna və Gürcüstanda ifa olunmuşdur.

2016-cı ildə Arif Məlikovun 28 cilddən ibarət "Not əsərlərinin tam külliyyatı" çap olunub.

### Nə yazdısa ürəyinin səsi, qəlbinin hökmü ilə yaratdı

"Ölümdən güclü" baleti, "Yer üzündə iki nəfər" baleti, "Əlibaba və qırx quldur" baleti, "İki ürək dastanı" baleti, Simfonik əsərləri, Simfonik poemaları, Kamera instrumental əsərləri, və s. yaratdığı əsərlər qəlbinin hökmü ilə nota köçürülüb. "Azərbaycan" balladası, 8 nömrəli simfoniya və digər teatr tamaşalarına yazdığı musiqiləri insanın daxili dünyasını fəth edir. Böyük ürək sahibi olan bəstəkarın geniş dünyagörüşü onun musiqisindən sezilir. Hər bir musiqi əsəri orijinallığı ilə fərqlənir və bu musiqilərdə insan düşüncəsi rahatlıq tapmaqla yanaşı, sanki bütün dünyanı dolaşır, bütün dünyanı görür. Nə yazdısa ürəyinin səsi, qəlbinin hökmü ilə yaratdı. Təbiət lövhələri, sevgi, ümumbəşəri məsələlər, lirik düşüncələr və s. mövzu rəngarənliyi onu milyonların sevimli bəstəkarına çevirdi.

Böyük bəstəkar sənət tariximizdə böyük müəllim kimi də yer alıb. Onun sinfində təhsil alan istedadlı gənc bəstəkarlar öz müəllimlərindən sənətin sirlərini dərindən öyrənmiş, Arif Məlikova layiq bəstəkar kimi yetişmişlər.



Arif Məlikovun yaradıcılığı və fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Belə ki, o, "Azərbaycan SSR əməkdar incəsənət xadimi" fəxri adına, "Şərəf Nişanı" ordeninə, "Azərbaycan SSR xalq artisti" fəxri adına, "İstiqlal" ordeninə, "Heydər Əliyev" ordeninə, Nizami Gəncəvi adına Qızıl medalına, "Şöhrət" ordeninə və s. layiq görülüb. Bu onun böyük sənətkar olmasından irəli gəlir.

Arif Məlikov 2019-cu il il mayın 9-da 85 yaşında dünyasını dəyişib, Bakıda I Fəxri Xiyabanda dəfn olunub. Bu gün aramızda olmasa da sənət dünyası, yardıcılıq irsi, yaratdığı bəstəkarlıq məktəbi onun musiqi dünyamızda əbədi olaraq yaşayacağından xəbər verir.

***Zümrüd BAYRAMOVA***

TƏHLİL



## "Terror aktları Azərbaycanı antiterror tədbirləri həyata keçirməyə məcbur etdi"



"Azərbaycan ordusunun həyata keçirdiyi antiterror tədbirlərini bir neçə istiqamətdə qiymətləndirmək olar". Bu sözləri SİA-ya açıqlamasında hərbi ekspert Azər Bayramov deyib. O bildirib ki, bunlardan ilk növbədə strateji baxımdan Azərbaycanın suverenliyini və konstitusiya quruluşunun tam şəkildə bərpa edilməsi, növbəti olaraq Ermənistan və onun havadarlarının yüz ildən artıq bir müddətdə Azərbaycana qarşı yürütdükləri iyrənc siyasətin seperatizm və terrorçuluğun məhz Azərbaycan ərazisində tamamilə məhv edilməsini təmin etdi: "Hərbi aspektdən baxdığımız zaman isə ikinci Qarabağ müharibəsindən sonra Ermənistan tərəfinin 10 noyabr bəyanatına əsasən üzərinə götürdüyü bir çox öhdəlik var idi ki, onları yerinə yetirmədi. Bunlardan biri də Qarabağda yerləşən seperatçı və terrorçu qruplaşmaların tərksilah edilərək oradan çıxarılması idi. Biz nəinki onların çıxarılmasını tam şəkildə, əksinə olaraq onların silahlandırılmasını, eyni zamanda şəxsi heyətlə təmin edilməsini müşahidə etdik. Zamanla Azərbaycan ordusunun mövqelərinin atəşə tutulması və son dövrlərdə bir az da irəli gedərək mülki insanlarımıza, mülki infrastruktura və polislərimizə qarşı həyata keçirilən terror aktları Azərbaycanı antiterror tədbirləri həyata keçirməyə məcbur etdi.

Antiterror tədbirlərinə gəldiyimiz zaman məhz Azərbaycan ordusunun qəhrəmanlığı və peşəkarlığı nəticəsində bir sutkadan az bir vaxt içində həmin seperatçı və terrorçu qruplaşmaların darmadağın edilməsi və təslim olunması təmin edildi. Burada əraziyə baxdığımız zaman 406 km², eyni zamanda 480 km-dən artıq təmas xəttinin olması əməliyyatın həyata keçirildiyi ərazinin nə qədər böyük, çətin relyefə malik olduğunun göstəricisidir. Ancaq Azərbaycan ordusu çox qısa zaman ərzində düşmənin 1700-dən artıq hədəfini sıradan çıxardı. Eyni zamanda idarəetmə məntəqələrində və onların əsasən təminat yollarını kəsməklə ümumilikdə seperatçı və terrorçu qruplaşmaların idarə edilməsində ciddi maneələr yaradaraq onları iflic vəziyyətə saldı. Bu da Azərbaycan ordusuna çox böyük üstünlüklər qazandırdı. Əsasən Şimal və Cənub istiqamətlərində və 13 istiqamətdən Azərbaycan ordusu müəyyən fəaliyyətlər həyata keçirdi. Bu fəaliyyətlərin eyni anda olması və kütləvi olaraq atəş zərbələri ilə həmin hədəflərin sıradan çıxarılması demək olar ki, seperatçı rejimi çıxılmaz vəziyyətə saldı. Onların təslim olunması ilə nəticələndi".

"Antiterror tədbirlərindən sonra işğaldan azad edilmiş ərazilərə Azərbaycan əhalisinin köçürülməsi, həm də bərpa-quruculuq işlərinin aparılmasının tam şəkildə təhlükəsiz və sürətli olaraq həyata keçirilməsi təmin edildi. Ermənistan tərəfi də cari dövrdə yenidən silahlanmaya daha çox meyllənir. Hesab edirəm ki, Ermənistan tərəfinin və onun havadarlarının belə təhlükəli davranışları Ermənistanın özü üçün yaxşı nəticələr verməyəcək.

Bundan sonra Ermənistan silahlanmaya yox, daha çox sülhlə bağlı addımlar atarsa, Ermənistanın özü üçün də daha əlverişli olar. Əks təqdirdə bu günə qədər Ermənistanın təxribatları nə ilə nəticələnmişdirsə, bundan sonra da eyni aqibəti yaşamaq məcburiyyətində qalacaq" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***



# Qürub edən Ermənistan: Demoqrafik böhran pik nöqtəsində

*Hesablama Palatasının sədri Nairi Sarkisyan bildirib ki, əgər bu temp davam edərsə, yaxın 25 ildə ölkədə erməni qalmayacaq*










***Hazırda sosial-iqtisadi çətinliklərlə üz-üzə qalan Ermənistan demoqrafik böhranın astanasındadır. Bunu beynəlxalq hesabatlar və statistik məlumatlar da sübut edir. Nüfuzlu beynəlxalq təşkilatların hesabatlarında Hayastan əhalisi qocalmış ölkələr sırasında yer alır. Birləşmiş Millətlər Təşkilatının 2023-cü ildəki rəyinə əsasən, yaşı 65 və yuxarı olan insanların sayının ümumi əhalinin 7 faizdən çox olduğu ölkənin əhalisi qoca hesab edilir. Ermənistanda isə hazırda bu rəqəm 11-12 faiz təşkil edir.***

Bu gün Ermənistanda digər makroiqtisadi göstəricilər, o cümlədən yoxsulluq və işsizlik səviyyəsi ilə bağlı da mənfi tendensiya davam edir. İqtisadi tənəzzül əhalinin əksəriyyətini ölkədən çıxıb getməyə məcbur edir. Erməni ekspertlər, eləcə də bəzi qurumlar bununla bağlı artıq həyacan təbili çalmağa başlayıblr. Onların bildirdiyinə görə, vətəndaşların ölkəni tərk etmələri onun gələcəyini qorxu altına alır.

Artıq iş o yerə çatıb ki, immiqrasiya məsələləri üzrə ekspertlər xaricdə daim yaşamaq və yaxud iş axtarmaq məqsədilə ölkəni tərk edənlərin sayının ildən-ilə artması nəticəsində Ermənistanda demoqrafik durumun kəskin həddə çatması barədə dövlət rəsmilərini xəbərdar edirlər. Mütəxəsislər məsələ ilə bağlı detallı və dərin təhlilər təqdim edərək bildirirlər ki, ölkədə immiqrasiya siyasəti getdikcə qorxulu vəziyyət alır. Ölkəni tərk edənlərin əksəriyyəti 25-35 və 40-55 yaş arası insanlardır.

Ölkədəki mövcud sosial-iqtisadi çətinliyin insanların psixologiyasına təsir edən başlıca amil olduğunu bildirən ekspertlər sistemli islahatlara ehtiyac duyulduğunu, siyasi, iqtisadi və sosial sahələrdə köklü dəyişikliklər edilməsinin vacibliyini vurğulayırlar. Çünki Ermənistanda yoxsulluqdan, işsizlikdən əziyyət çəkən, hökumətdən narazı olan insanlar ölkəni sürətlə tərk edirlər.

Təbii ki, bütün bunlar təsadüfi deyil. Demoqrafiya elminə görə, demoqrafik böhrana səbəb olan əsas amillərdən biri əhalinin təbii azalmasıdır. Digər tərəfdən, əhali arasında yaşlıların sayının artması, uşaqların isə azalması, eyni zamanda, bu prosesdə iqtisadi və sosial amillər də əsas rol oynayır.

Ermənistandakı demoqrafik böhranla bağlı Hesablama Palatasının sədri Nairi Sarkisyan bildirib ki, ölkə əhalisi yaxın 10 ildə 800 min nəfər azalaraq 2,2 milyon nəfərə düşə bilər. O qeyd edib ki, əgər bu temp davam edərsə, yaxın 25 ildə ölkədə erməni qalmayacaq. Onun sözlərinə görə, bütün bunların əsas səbəbləri doğum səviyyəsinin aşağı olması, mühacirət, qırx dörd günlük müharibə və digər sosial-iqtisadi amillərdir.

N.Sarkisyan bildirib ki, ötən il 48 min vətəndaş Ermənistanı tərk edib və geri qayıtmayıb. Ukraynada müharibə başlayandan sonra Rusiyaya gedən vətəndaşların sayı azalsa da, ABŞ-da yaşıl kartlar qazanmaq üçün növbələr yaranıb. Hesablama Palatasının rəhbəri ilin sonuna kimi vətənini tərk edənlərin sayının 2023-cü ilin göstəricisindən çox ola biləcəyini istisna etmir. Onun sözlərinə görə, Ermənistanda orta doğum əmsalı da dəyişikliklərə məruz qalıb. Bu göstərici rəsmi olaraq 1,6-1,7 arasındadır. Lakin Qarabağ müharibəsindən sonra çoxsaylı qurbanlar və əlillər fonunda hesablama aparılmayıb: "Fərz edirik ki, göstərici aşağı düşüb və 1,4 ilə 1,5 arasında dəyişir".

Hesablama Palatasının sədri vurğulayıb ki, işsizliklə bağlı da vəziyyət durğundur. Ölkədə 1 milyon 150 min insanın sosial qayğıya ehtiyacı var. Onlardan 204 mini işsizdir. 960 min nəfər isə pensiyaçılar, uşaqlar və əlillərdir: "560 minə yaxın insan sosial müavinət və pensiya alır, qeydiyyatda olan işçilərin sayı isə 760 min nəfərdir.

Torpaq və su ehtiyatlarına gəlincə, Sarkisyan vurğulayıb ki, Ermənistanda kənd təsərrüfatına yararlı torpaqların 60%-dən çoxu hələ də əkilməmiş və istifadəsiz qalır. Eyni zamanda, su ehtiyatlarının 70 faiz idarə olunmur.

Hökumət rəsmisi vurğulayıb ki, bütün bunlar ölkədə fəlakətli vəziyyətə gətirib çıxarıb. İlkin siyahıyaalma məlumatlarına görə, Ermənistanın daimi əhalisi 2 milyon 928 min 914 nəfər, yerli əhalinin sayı isə 2 milyon 638 min 917 nəfərdir. Birləşmiş Millətlər Təşkilatı da 2050-ci ilə qədər Ermənistanda əhalinin sayının 300 min azalacağını proqnozlaşdırır.

Burada bir məsələni xüsusilə vurğulamaq lazımdır ki, Ermənistanın Avropa İttifaqı Şurasının viza rejiminin liberallaşdırılması ilə bağlı qərarı da bu ölkədəki demoqrafik böhranı daha dərinləşdircək. Çünki bu qərar yoxsulluqdan, səfalətdən, işsizlikdən əziyyət çəkən sadə Ermənistan vətəndaşlarının ölkəni daha asan və sürətlə tərk etməsi üçün münbit şərait yaradacaq. Nəticədə qarşıdakı illərdə N.Sarkisyanın da bildirdiyi kimi, ölkədə erməni qalmayacaq.

***Zahid Rza***






# Bahalaşmanı kompensasiya etmək üçün maaşlar nə qədər artırılmalıdır?

ANALİZ

***İnflyasiyanın davam etməsi və zəruri tələbat məhsullarının qiymətinin bahalaşması əməkhaqqı və pensiyaların artırılmasını şərtləndirir. Bununla bağlı artıq anons verilib və gələn ilin yanvrından maaş və pensiyalarda artımların olacağı gözlənilir.***




Sonuncu dəfə 2023-cü ildə baş verən maaş və pensiya artımlarından keçən müddət ərzində orta hesabla 50 faiz bahalaşmanın olduğunu nəzərə alsaq, maaş və pensiya artımı da ən azı bu qədər olması vacibdir. Artımlar inflyasiyanı indeksasiya etməlidir ki, əhalinin sosial vəziyyəti ağırlaşmasın. Bu səviyyədə artım əslində real artım yox, sadəcə, nominal artım olacaq və yalnız indeksasiyanı təmin edəcək. Beləliklə, minimum əməkhaqqının da ən azı 500 manata qaldırılması vacibdir.

İndiyədək adambaşına yaşayış minimumu 270 manatdır, son 1 ildəki bahalaşmanı nəzərə almaqla bunun ən azı 400 manata çatdırılması vacibdir. Üstəlik, bahalaşmanın davam etməsi ilə bağlı minimum istehlak səbətinin dəyəri də durmadan artır. Bu səbəbdən həm minimum əməkhaqqının və minimum pensiyaların, həm də yaşayış minimumunun artırılması aztəminatlı ailələrin sosial müdafiəsi üçün çox vacibdir.

Ölkədə maaş və pensiyaların artırılması əhalinin sosial vəziyyətinin yüksəlməsinə xidmət edir. Lakin ənənəvi olaraq bəzi işbazlar tərəfindən bu artımlardan sonra gündəlik məhsulların qiymətlərinin süni bahalaşdırılması tendensiyası müşahidə olunur ki, bu da son nəticədə inflyasiyanı artırır, edilən artımları səmərəsiz hala gətirir. Ölkə prezidenti bir neçə dəfə belə hallara qarşı sərt reaksiya verib və süni bahalaşma halları aradan qaldırılıb.

Büdcədən maliyyəşənlərin maaş və pensiyaları qaldırılandan sonra baş verən bahalaşma meyilləri təkcə onlara deyil, özəl və ictimai sektorda çalışan və maaşları artmayan vətəndaşlara da zərər vurur. Çünki, maaşı artımları dövlət büdcəsindən əməkhaqqı alanlara aid olur, minimum maaş alanlar istisna olmaqla özəl şirkətlərdə işləyənlərin maaşları artmır.

Süni bahalaşmanın qarşısını almaq üçün inzibati metodların tətbiqi də mümkündür, lakin burada başqa faktorlar da var ki, ilk növbədə onlara toxunmalıyıq. Bazarda süni proseslərin qarşısını almaq üçün rəqabət mühiti təmin olunmalıdır.

Məhsulunu bazara çıxaran şəxs və ya şirkət bunun üçün verdiyi rüşvətləri məhsulun üzərinə əlavə edir və qiymətlər süni şəkildə artır. Qiymətlər bazar stabilləşdirməlidir, tələb-təklif münasibətləri əsas rol oynamalıdır. Ona görə də, dövlət başçısının dediyi kimi, inhisarçılıq, korrupsiya halları aradan qaldırılmalıdır.

İnzibati təzyiq vasitələri müvəqqətidir, amma bunun da təsiri ola bilər. İnzibati təzyiq ona yönəlməlidir ki, sahibkarların, məshul istehsalçılarının əlavə xərcləri yaranmasın. Əks halda, qiymətlər süni şəkildə artacaq. Ölkə başçısı dəfələrlə bildirib ki, sahibkarların fəaliyyətinə qeyri-qanuni müdaxilələr, təzyiqlər aradan qaldırılmalıdır.

Qiymət və qiymətləndirmə məsələsini tamamilə bazarın öhdəsinə buraxmaq da düzgün deyil. Çünki burada təkcə iqtisadi problem deyil, ictimai, siyasi, sosial və mənəvi məsələlər də birləşir. Belə ki, bəzi qiymətlərin dövlət tərəfindən tənzimlənməsi həmin məhsulların və xidmətlərin ucuzlaşması ilə nəticələnə bilər ki, bu da son nəticədə əhalinin həyat səviyyəsinə müsbət təsir edər.

Dünyanın ən yüksək inkişaf etmiş ölkələrində belə, qiymətlərin müəyyən sərbəstliyi və sahibkarın qiymət sahəsindəki sərbəstliyi ilə yanaşı, dövlətin tənzimləyici siyasəti də mühüm yer tutur. Məsələn, hətta ABŞ kimi klassik kapitalist iqtisadiyyatına malik olan ölkədə gündəlik tələbat məhsullarından tutmuş strateji məhsullara qədər 900-ə yaxın adda məhsul və xidmətin qiyməti dövlətin nəzarətindədir. Bu o deməkdir ki, həmin qiymətlər müəyyən dəhliz daxilində tənzimlənir, yəni onun mümkün minimum və maksimum qiymətləri müəyyən edilir və qiymətlərin bu arada olması təmin edilir.

Buna baxmayaraq, prosesi təkcə inzibati metodlarla tənzimləmək mümkün olmayacaq. Bazarda daha çox bolluq yaratmaq üçün istehsalı stimullaşdırmaq, bazara çıxışları asanlaşdırmaq lazımdır. Fermerlərin məhsul istehsalı ilə daha fəal və səmərəli məşğul olması üçün dövlət dəstəyi gücləndirməlidir.

Dünya ölkələrində kəskin qiymət artımı müşahidə olunmur. Adətən bir neçə faizlik artım qeydə alınır. Bu da iqtisadi amillərlə, tələb və təkliflə bağlı olur. Azərbaycanda qiymət artımı isə, əsasən, sahibkarların daha çox mənfəət əldə etmək istəyi ilə bağlıdır. Sahibkarlar tələbin daha çox olduğu və dövrüyyədə pulun artdığı dövrdə daha çox vəsait qazanmaq istəyirlər.

Bütün bunları nəzərə alaraq qeyd etməliyik ki, hökumət elə bir optimal mexanizm tapmalıdır ki, həm bazar rəqabəti qaydaları pozulmasın, həm süni bahalaşmnın qarşısı alınsın ki, əməkhaqqı və pensiya artımları inflyasiyanın yeminə çevrilməsin. Bununla əlaqədar olaraq daxili bazarı qorumaq, əhalinin sosial müdafiəsini gücləndirmək, iqtisadi artımı təmin etmək həyati dərəcədə vacibdir.

***Elçin Bayramlı***



# Maşallah, göz dəyməsin...

FELYETON

Son illər ölkəmizdə keyfiyyətli pomidor sortları yetişdirilir. Bu sortların toxumlarını haradan alırlar, haradan gətirirlər, nə cür əldə edirlər, deyə bilmərəm. Ancaq maşallah deyək ki, göz dəyməsin. Vallah, sözün həqiqi mənasında qürur duyur insan. Mən deyim nəyə görə, siz də dinləyin. Əvvəllər gedirdin bazara pomidor alırdın. Bilmirdin ki, onu evə necə çatdırasan. Bütün aldıqlarını bir ayrı zənbilə yığmalıydın, pomidoru bir ayrı zənbildə ayrıca götürməli idin ki, evə sağ-salamat çatdıra biləsən. Yanından yel ötməmiş əzilirdi. Yaxşı, bir təhər evə çatdırdın. Bircə günün içərisində də yeyilib qurtarırdı 2-3 kiloqram pomidor. Bax bilmirəm bu, niyə belə olurdu.

Ancaq indi pomidor ta adama əvvəlkilər kimi əziyyət vermir. Bazara get, marketə get, nə istəyirsən al, yığ bir zənbilə, istəyirsən pomidoru da lap altdan yığ. Evə qayıdanda marşrut avtobuslardakı o dəhşətli sıxlığa düş, bəzi küçələrdə qazılıb aylarla təmir edilməyən çalalara ayağın keçsin, yıxıl, yenə də evdə zənbilini boşaldanda görəcəksən ki, pomidorların heç burnu da qanamayıb. Yenə də maşallah.

Vallah, inkişaf, yenilik, tərəqqi çox gözəldir. Kimin ağlına gələrdi ki, uzun illər aldığımıza bizi peşman edən pomidor illər sonra bizi belə şad-xürrəm edəcək. Hələ əzilməsini qoyaq bir kənara. Əvvəlki pomidorlar soyuducuda bir neçə gün qalandan sonra suyu axırdı, soyuducunu korlayırdı. Gəl indi, buyur, təmizlə. Ancaq indiki pomidorlar, maşallah, həftələrlə qalır soyuducuda, əhvalı belə pozulmur. Həm də neçə gözəl doğranır, alma kimi. Hətta almanı doğrayanda eşitdiyin o şaqqıltı səsini də dinlədikcə, maşallah belə inkişafa, deyirsən. Həm də bərəkəti də var. Bir pomidor doğrayırsan, külfət yeyir, hələ boşqabda da qalır.

Düşünürsən ki, İlahi, görəsən hansı texnologiya ilə yetişdirilir bu pomidorlar? Əvvəllər də insanlar eyni insanlar idi də. Görəsən nə dəyişib ki? Bizim niyə ağlımıza gəlmirdi belə pomidor istehsal etmək?

Hələ o gün qonşuda idim. Uşağın nə bilim, beyninə haradan vermişdi, alma deyib ağlayırdı. Evdə də alma yox idi. Biz nə etdik uşağın anası ilə? Soyuducudan bir pomidor götürüb yuduq, alma kimi dilimləyib qoyduq uşağın qarşısına. Uşaq elə ləzzətlə yedi, bir kəlmə demədi ki, məni niyə aldadırsınız. Elə o an bu cür pomidor istehsalçılarını bir daha alqışladım. Bir alma istəyən uşağın ki səsini pomidorla kəsə bildik, bu, böyük tərəqqidir. Yəni alma bərklikdə, alma turşməzəlikdə, alma qədər qabığı qalın pomidor yetişdirmək, bu, kənd təsərrüfatında inqilabdır. Təbrik edirəm.

Düşündüm ki, bu həftəlik yazı planıma hökmən bu pomidorlarla bağlı yazı yazmağı salmalıyam. Çünki insanların hamısı bazar, marketlərdən həmin pomidorlardan alır, birdən məndən qabağa düşüb ya yazan, ya da redaksiyaya təşəkkür məktubu çatdıran olar. Niyə məndən qabağa düşən olmalıdır? Mən bu yeniliklərdən niyə ilk yazan olmayım ki? Axı özüm də o pomidorların həm keyfiyyətini, həm qiymətini, həm alma kimi doğranmağını hamı kimi görmüşəm. Ona görə də yazdım. Yazdım ki, düzdür, bilməyən yoxdur, olsa əgər belə pomidordan onlar da alıb istifadə etsinlər. Etsinlər ki, bəlkə minlərin içindən biri qalxıb deyə ki, sən Allah, düz deyirsən?!

***Mətanət Məmmədova***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti çərçivəsində hazırlanıb.*

**Təhsil hər bir vətəndaşın əsas hüququ və sosial məsuliyyətidir. Əlçatanlığı hamı üçün təmin olunmalı olan bu təməl hüquq bizim özünütəsdiq və gələcək üçün ən vacib kapitalımızdır. Bu səbəbdən də tam orta təhsil almaq, ali məktəbə daxil olmaq prioritet olmalıdır.**

# 107 yaşlı məktəbdən 100 faizlik nəticə: bütün məzunları tələbə oldu












Bu il ali məktəbə qəbul nəticələrinə görə liderlik edən məktəblər oldu, o məktəblərdən biri də Bakının Səbail rayonundakı 162 saylı məktəbdir. 2023-2024 - cü tədris ili üzrə Dövlət İmtahan Mərkəzi tərəfindən təşkil olunan ali məktəblərə qəbul imtahanında məktəbin 11 B sinif şagirdi Rəvanə Əmirova 619 bal toplayaraq ölkə məzunları arasında 600-dən çox bal toplayanlar siyahısında qərarlaşdı. Ölkə üzrə 500-dən çox bal toplayan məzunlar arasında isə məktəbin 3 şagirdi var. Aysel Şahməmmədli 594, Həsən Namazlı 575, Güldərən Paşazadə isə 548 balla yüksək nəticə göstərən şagirdlərdəndir.

Məktəbin builki məzunlarının göstərdiyi maksimum qəbul nəticəsi 162 saylı təhsil ocağının, ölkə üzrə ali məktəbə qəbul imtahanlarından əldə edilən uğurda xüsusi paya sahib olduğunu təsdiqlədi. Belə ki, rəhbərliyi Vüsalə Mirzəyevanın öhdəliyində olan 11 A sinfindən məzun olan şagirdlərinin hamısı bu il ali məktəbə qəbul oldu. Həmin sinfin şagirdlərindən olan Şahməmmədli Aysel BANM, Proseslərin avtomatlaşdırıkması mühəndisliyi, Həsən Namazlı Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, İnformasiya təhlükəsizliyi, Əli Ələkbərov isə həmin universitetin enerhetika mühəndisliyi ixtisaslarına yiyələnəcəklər. 11 A sinfinin digər şagirdlərindən olan Güldərən Paşazadə və Emin Əsədli UNEC-də təhsil alacaqlar, Güldərən Beynəlxalq münasibətlər, Emin isə Dövlət və bələdiyyə idarəetməsi ixtisaslarına sahiblənəcək.

11 A-dan Qarabağ Universitetinə qəbul olan da var. Ləman Əzizli Qarabağ Universitetində kompyuter mühəndisliyi üzrə oxuyacaq. Abdulkərim Kərimov və Səbinə Seyidova BDU-da təhsil alacaq, Abdulkərim Yer quruluşu və daşınmaz əmlak kadastrı ixtisasını, Səbinə isə biologiya müəllimliyi üzrə püxtələşəcək. Fərid Cəbrayılov AZMİU, inşaat mühəndisliyi, Tellər Məmmədova Bakı Biznes Universiteti, sosial iş, Leyla Rəhimova Bakı Slavyan Universiteti, xarici dil müəllimliyinə sahiblənəcək.

Həmin sinfin məzunlarından olan Aysun Alıyeva ADMİU, Sosial iş, Mətin Əlizadə Qərbi Kaspi Universiteti, Turizm bələdçiliyi, Murad Mehdizadə Azərbaycan Texniki Universiteti, Hərbi kompazisiya materiallarının mühəndisliyi, Kamal Şəmşiyev Gəncə Dövlət Universiteti, Dizayn, Ayxan İsgəndərli Sumqayıt Dövlət Universiteti, Kompyuter mühəndisliyi ixtisaslarına qəbul olublar.

11 A-nın xaricdəki təhsil ocaqlarına qəbul alan məzunları da var. Sultan Bəylərli Osman Qazi Universitetində Memarlıq, Ərən Allahverdi Ankara Universitetində Siyasi biliklər, Kənan Həsənov Sankt Peterburq Texnologiya Universitetində menecment ixtisaslarına yiyələnəcəklər.

Qeyd edək ki, 162 saylı orta məktəb Bakının ən qədim və köklü məktəblərindən biridir. Bu məktəbin məzunları ali məktəblərə imtahanlarda hər il böyük nailiyyətlər əldə edirlər. Məktəbin şagirdləri isə mütamadi olaraq beynəlxalq olimpiadalarda, müxtəlif bilik və idman yarışlarında qalib olub medallar qazanırlar. Məktəbdə xarici dil kimi rus və ingilis dilləri tədris edilir. Müəllim-şagird nisbəti 1:13 nəfərdir.

Məktəb, 2016-cı ildə yaradılmış "Kiçik Akademiya" AMEA-nın "Gənc Alim və Mütəxəssislər Şurası" nın dəstəyi ilə şagirdlərin potensial istedadınının aşkara çıxarılması, onların gələcək inkişafının düzgün istiqamətləndirilməsinin təmin edilməsi məqsədi ilə həyata keçirdiyi tədbirlər nəticəsində bir sıra uğurlara imza atıb. Məktəbdə zəngin maddi-texniki baza ilə təchiz olunmuş fizika, biologiya, kimya, informatika kabinetləri, ekosinif fəaliyyət göstərir. Gənclərin Çağırışa Hazırlıq kabinetində isə mini kazarma yaradılıb. 11.09.2017-ci il tarixində ölkə prezidenti cənab İlham Əliyev əsaslı təmirdən sonra məktəbə gələrək, görülmüş quruculuq işləri ilə yaxından tanış olub.

Məktəbin direktoru Nərgiz Ələkbərovanın sözlərinə görə, məktəbdə Təhsil Nazirliyinin "Rəqəmsal bacarıqlar" (Alqoritmika), STEAM pilot layihələri uğurla həyata keçirilir. STEAM şagirdləri "Hakaton 2021" ,"Makerthon 2021" ,"Makerthon 2022" ,"Smart School" yarışmasında, İzmir Böyükşəhər Bələdiyyəsinin təşkilatçılığı ilə keçirilən beynəlxalq Online VEX Robotics yarışmasında, Bakı Ekspo Mərkəzində Təhsil Nazirliyinin dəstəyi ilə "STEAM Azərbaycan" layihəsi çərçivəsində STEAM Azərbaycan Festivalında (SAF) uğurla iştirak ediblər. Yeri gəlmişkən qeyd edək ki, Təhsildə İnkişaf və İnnovasiyalar üzrə VIII qrant müsabiqəsinin avqust ayında elan edilmiş nəticələrinə görə məktəbin Azərbaycan dili, Steam təlimçi və Rəqəmsal bacarıqlar müəllimi Sevinc Əliyeva uğur qazanıb.

1-ci Qarabağ müharibəsi qəhrəmanı, şəhid Etibar Allahverdi oğlu Əliyevin adını daşıyan bu təhsil ocağı Bakıda Vətən Müharibəsində ən çox şəhid vermiş məktəbdir. Vətən Müharibəsində 162 saylı məktəb 4 məzununu şəhid verdi. Məktəbin əvvəlki illərdən olan məzunları Bilal Qəmbərov, Əli Tağıyev, İsmayıl Hüseynov, Cavidan Ağayev döyüşlərdə şücaət göstərərək qəhrəmanlıqla şəhid oldular. Məktəbin həyətində şəhidlərin xatirəsinə barelyef düzəldilib və iri fotoları vurulub, hər biri haqqında məlumatlar qeyd olunub. Məktəbin Hərbi rəhbəri Sarvan Şirinov uğurlarına və səmərəli fəaliyyətinə görə fərqlənərək ötən il Elm və Təhsil Nazirliyinin "Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi" döş nişanı və Fəxri Fərmanla təltif olunub.

Məlumat üçün qeyd edək ki, 107 yaşlı məktəbin binası 1917-ci ildə Bakı milyonçusu Murtuza Muxtarov tərəfindən inşa edilib. Məktəbdə qızlara təhsil verməklə yanaşı, toxumaq, tikiş tikmək kimi bacarıqlar öyrədilirdi. Məktəb 650 yerlik əsas korpusdan ibarətdir, 5 günlük və 2 növbəli iş rejimində işləyir. Hazırda 57 sinif komplektində 1689 nəfər şagird Azərbaycan və rus bölmələrində təhsil alır. 98 nəfərdən ibarət pedoqoji kollektiv üzvlərindən bir nəfər elmlər namizədidir.

Tələbələrə təhsil həyatında, məktəb rəhbərliyinə və müəllim-şagird heyətinə yeni tədris ilində uğur arzulayırıq.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
13 sentyabr
2024-cü il

# İsti havalarda işçinin hüquqları necə tənzimlənir?



***“Əmək Məcəlləsinin 233-cü maddəsinə görə, "soyuq və isti hava şəraitində fasilələr və işin dayandırılması" maddəsinə əsasən əgər havanın temperaturu azı 41 dərəcədən çoxdursa, o zaman fasilələr verilməlidir və iş dayandırılmalıdır". Bu sözləri SİA-ya açıqlamasında hüquqşünas Əkrəm Həsənov deyib. O bildirib ki, digər maddəyə görə əgər bu zaman iş dayandırılıbsa, bu boş dayanma vaxtı tarif maaşının üçdə iki hissəsindən az olmayaraq ödənilməlidir: "Məsələn, temperatur 41 dərəcədən çoxdur, bu, bütün gün belədir.***



## MÜNASİBƏT

İşçinin də maaşı gündəlik 60 manatdırsa, onun üçdə ikisindən az olmayaraq verilməlidir. Həmin günə görə ən azı 40 manat maaş ödənilməlidir. İşə götürən deyə bilməz ki, ”həmin gün işləməmisən”. Çünki işçinin təqsirindən olmayıb. Bu, havanın temperaturuna görə olub. İşə götürən istəsə, maaşı bütöv də verə bilər.

**1.** İşçilər aşağı temperatur və şiddətli külək şəraitində açıq havada, habelə ilin soyuq vaxtlarında qızdırılmayan qapalı binalarda işləyərkən onlara qızınmaq üçün fasilələr verilir və ya iş dayandırılır.

**2.** İşçilər havanın temperaturu azı 41 dərəcə Selsidən çox olan isti və açıq şəraitli iş yerlərində və ya ilin soyuq vaxtında, temperaturu müsbət 14 dərəcə Selsidən aşağı olan örtülü, lakin isidilməyən binalarda işləyərkən onlara bu maddə ilə müəyyən olunmuş qaydada fasilələr verilir və iş dayandırılır.

**3.** İşçilərə fasilələr verilməsi və işin dayandırılması üçün əsas hesab edilən havanın temperaturu və küləyin gücü bu Məcəlləyə 2-ci əlavədə nəzərdə tutulmuşdur.

**4.** Fasilələr iş vaxtına daxil edilir və bu fasilələr zamanı əmək haqqı işçilərin tarif maaşına görə ödənilir.

**5.** İş dayandırıldıqda, boşdayanma vaxtının haqqı işçinin təqsiri üzündən baş verməyən boşdayanma kimi, tarif maaşının üçdə iki hissəsindən az olmayaraq ödənilir.

### Azərbaycan Respublikasının Əmək Məcəlləsinə 2-ci əlavə

İlin soyuq vaxtında açıq havada və ya isidilməyən örtülü binalarda, habelə isti havalarda işin dayandırılması və işçilərə fasilələrin verilməsi şərtləri:

1. Havanın temperaturu 41 dərəcə Selsidən çox olan hava şəraitində açıq havada və sərinləşdirici qurğular olmayan örtülü binalarda, otaqlarda və digər iş yerlərində bütün növ işlərin görülməsi dayandırılır və işçilərə sərinləşmək üçün imkan yaradılmaqla fasilələr verilir”.

***Söylü Ağazadə***

## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343**
**7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898**
**8. Ziya LTD – 0124977696, 0503067744**

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Kirayə evlər bahalaşıb?

***“2021-ci ildən başlayaraq 2023-cü ilin sonuna kimi orta hesabla daşınmaz əmlakın qiyməti 35 faiz civarında bahalaşıb”. Bu sözləri SİA-ya açıqlamasında daşınmaz əmlak üzrə ekspert Elnur Azadov deyib. Elnur Azadov sözlərinə belə davam edib: ”Lakin 2023-cü ilin dekabrından başlayaraq, yəni ipotekaların verilməsi prosesi dayandıqdan sonra (resurslar banklar tərəfindən bitdi) qiymətlərin tədricən stabilləşməsi müşahidə olundu. Bu ta ki davam etdi bu ilin fevral ayına kimi. Fevral ayının ortalarından ipotekalar aktivləşdi. Nisbətən bu ilin fevral-may ayları canlanma müşahidə olundu. Qiymət artımı da 5 faiz civarında oldu. Bu, müxtəlif siqmentlərdən asılıdır.***

## EKSPERT AYDINLIQ GƏTİRDİ

Daha çox ipotekaya yararlı daşınmaz əmlakda qiymət bahalaşması müşahidə olundu. Bəzi ərazilərdə torpaqların qiymətləri bahalaşdı. Hazırkı say məhdud, tələbat olduqca yüksək, təklif isə azdır. Bu həm Bakı-Abşeron ərazisinə, həm də regionlara aiddir. May ayından sonra, iyun ayının əvvəlindən etibarən bu günə kimi qiymətlərdə stabilləşmə qeyd olunur. Yəni qiymət artımı müşahidə olunmur. Burada istisna hal bağ mövsümü ilə bağlıdır. Bu da tələbatın yüksək olması ilə bağlıdır. Həmçinin, kirayə verilən bağ evlərində qiymət artımı mövsümü görə müşahidə olunur.

İndiki vəziyyətdə isə yalnız kirayə evlərin bahalaşmasını görürük. Belə ki, Bakı və regionlarda olan böyük şəhərlərə tələbə axını başlayıb. Təkliflərin sayı olduqca azdır. Bir mənzilə ən azı 10 müraciət var. Bu baxımdan bu seqmentdə olan evlər 20 faiz bahalaşmaqdadır. Bu tendensiya oktyabr ayının əvvəlinə qədər davam edəcək. İlin sonuna kimi qiymətlərdə ciddi bir bahalaşma müşahidə olunmayacaq”.

***Ayşən Vəli***



*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 2700**